www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 4 sentyabr 2025-ci il Cümə axşamı № 157 (8767) Qiymətı 60 qəpik

**Xəbər**

**Azərbaycanlılar ən çox bu xəstəlikdən ölür - xəbərdarlıq**

yazısı səh.10-da

# KREML BAKI-İRƏVAN BARIŞIĞINA QARŞI

Azərbaycanla Ermənistan arasında "saat əqrəbləri" bu dəfə Çində tutuşduruldu; Rusiyaya "sarı kart" göstərildi...



yazısı səh.8-də

## Bəzi nazirlik və qurumların ləğvinə çağırış - qənaət, yoxsa...

Büdcəyə yük olan dövlət strukturlarının birləşdirilməsi təklif olunur; islahatlar bu orqanlara da çata bilər - ekspert rəyləri

yazısı səh.3-də

**Gündəm**

**Prezident və birinci xanım Asiya nəhənginin paradında**



**Vitse-spiker:** "Bu möhtəşəm tədbirdə iştirakdan millətimiz yalnız qürur duya bilər"

yazısı səh.9-da

**Daha bir ölkə "Putin ittifaqı"nda - Bakıdan gözlənti**

yazısı səh.5-də

**Azərbaycana bitməyən hücumlar - Moskvanın dərdi nə?**

yazısı səh.4-də

**Ermənilərin Qarabağdan köçü dərslikdə - qalmaqal**

yazısı səh.7-də

**Bakıda səfirlik işçisi məhkəmədə - yarım milyonluq iş**

yazısı səh.3-də

**Hindistandan Azərbaycana "pas" - Bakı üçün fürsət?**

yazısı səh.9-da

**"Könlü balıq istəyənin..."- əməkdaşımızın bazar qeydləri**

yazısı səh.11-də

**Ukrayna müharibəsində dönüş - Zelenskinin Putinə sürprizi**

yazısı səh.12-də

**Avropa əhalisi qocalır - Azərbaycanın çıxarmalı olduğu dərs**

yazısı səh.15-də

**Rusiyada qadınlara zorakılığa dözmək təbliğ olunur**

yazısı səh.4-də

**Bağça uşaqlarının yeməyinə göz dikən direktorlar - valideynlər oxusun**

yazısı səh.14-də



Razi Nurullayev

**Deputatdan tıxaclara etiraz: "Daha pis olacaq"**

yazısı səh.3-də



**Rusiya Trampa sui-qəsd hazırlayıb? - reaksiya**

yazısı səh.5-də



*Sabir Rüstəmxanlı:*

**"Valideynlər rusdilli məktəb üçün "yaxasını cırır""**

yazısı səh.5-də

# Bakıda əməliyyat: gizlədilən 10 qızıl külçə aşkar edildi



**Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşlarının həyata keçirdiyi gömrük nəzarət tədbirləri nəticəsində qızıl külçələrin qanunsuz şəkildə gömrük sərhədindən keçirilməsinin qarşısı alınıb. Bu barədə Dövlət Gömrük Komitəsindən bildirilib.**

Məlumata görə, Dubay-Bakı aviareysi ilə gələn ölkə vətəndaşı şəxsi yoxlamaya cəlb olunub və onun üzərindən gömrük nəzarətindən gizlədilən ümumi çəkisi 712 qram olan 10 ədəd "Pamp" markalı qızıl külçə aşkar edilib.



## Azərbaycan bu ölkədə səfirlik açır

**Azərbaycan daha bir ölkədə səfirlik təsis edəcək. Bununla bağlı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sentyabrın 10-da keçiriləcək iclasının gündəliyinə məsələ daxil edilib.**

İclasda "Azərbaycan Respublikasının Bəhreyn Krallığında (Manama şəhərində) Səfirliyinin təsis edilməsi haqqında" məsələ müzakirə olunacaq.



## Səhər yeməyində uşağı qovan bağça müdiri işdən çıxarılıb

**Daxil olan vətəndaş müraciəti əsasında Abşeron rayonu Pirəkəşkül kənd 21 nömrəli uşaq bağçasında Abşeron-Xızı Regional Təhsil İdarəsi tərəfindən araşdırma aparılıb. Araşdırma nəticəsində vəzifə funksiyalarının icrası zamanı yol verdiyi nöqsanlara görə təhsil müəssisəsinin müdiri Xədicə Vəliyeva ilə bağlanmış əmək müqaviləsinə xitam verilib. APA xəbər verir ki, bu barədə Abşeron-Xızı Regional Təhsil İdarəsi məlumat yayıb.**

Bildirilib ki, təhsil müəssisələrində uşaqların düzgün qidalanması, sağlam və təhlükəsiz mühitdə təhsil alması, həmçinin vətəndaşların təhsil müəssisəsinə etimadının artırılması əsas prioritetlərdəndir. Təhsil müəssisələrində hər hansı neqativ halların baş verməsi yolverilməzdir. Bu istiqamətlərdə hər bir müraciət diqqətlə araşdırılır və qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülür.

Qeyd edək ki, bir müddət əvvəl övladı 21 saylı uşaq bağçasına gedən valideyn şikayətində bildirib ki, onun 5 yaşlı qızı bağçanın müdiri Xədicə Vəliyeva tərəfindən səhər yeməyi vaxtı qovulub.

## Məşhur universitetn binası məhkəməyə verildi

**Keçmiş Təfəkkür Universitetinin Bakı şəhəri Nərimanov rayonu ərazisində yerləşən binası Bakı İnzibati Məhkəməsinə verilib. Modern.az saytının əldə etdiyi məlumata görə, Bakı İnzibati Məhkəməsi yaxın günlərdə yeni binasında fəaliyyətə başlayacaq.**

Təfəkkür Universiteti Nazirlər Kabinetinin 11 sentyabr 1995-ci il tarixli qərarı ilə dövlət qeydiyyatından keçərək özəl ali məktəb statusu almışdı. Universitet 2016-cı ildən fəaliyyətini dayandırıb.

2016-cı ilin oktyabr ayında Təfəkkür Universitetinin Təsisçilər Şurası maliyyə vəziyyətində yaranmış problemlə əlaqədar universitetin fəaliyyətinin dayandırılması barədə Təhsil Nazirliyinə müraciət edib. Təhsil Nazirliyi müraciəti, universitetin 5 illik akkreditasiya müddətinin 2016-cı ildə bitdiyini, eyni zamanda akkreditasiyadan keçirilməməsini nəzərə alaraq 2017-2018-ci il tədris ili üçün tələbə qəbulunun proqnozlaşdırılmamasını və tələbə kontingentinin digər ali təhsil müəssisələrinə yerləşdirilməsini təşkil etmək məqsədilə qərar qəbul edib.

Qeyd edək ki, Təfəkkür Universiteti ilə bağlı böyük əks-səda doğuran hadisə indi də mətbuatda tirajlanmaqdadır. Söhbət Təfəkkür Universitetinin sabiq rektoru Müşfiq Atakişiyevin prorektor Tariyel Əhmədovun qətlini sifariş etməsindən gedir. Prorektor Tariyel Əhmədov 2011-ci il sentyabrın 16-da qətlə yetirilmişdi.

M.Atakişiyev 2016-cı ildə Təfəkkür Universiteti bağlanmazdan bir müddət öncə rektor vəzifəsindən istefa vermişdi. Universitet isə az sonra fəaliyyətini dayandırmışdı. Baş Prokurorluq 12 il əvvəl baş vermiş qətl hadisəsi barədə 2023-cü ilin noyabrında məlumat yayıb və sabiq rektor Müşfiq Atakişiyev həbs edilib.

Məhkəmənin hökmü ilə M.Atakişiyevə 14 il 6 ay müddətinə azadlıqdan məhrum etmə cəzası kəsilib.



## Ermənilər bu türk ölkəsinə vizasız gedəcəklər

**Qazaxıstan parlamentinin aşağı palatası Ermənistanla vətəndaşların qarşılıqlı səfərləri və ölkədə qalma qaydası haqqında sazişi ratifikasiya edib. 2024-cü ilin aprelində İrəvanda imzalanan sənədin əsas bəndi 90 gün müddətinə vizasız rejimin tətbiqi ilə bağlıdır.**

Hər iki ölkənin vətəndaşları etibarlı sənədlər əsasında qarşı tərəfin ərazisində üç ayadək viza almadan qala biləcəklər.

Qazaxıstan daxili işlər naziri Yerjan Sadenov bildirib ki, saziş həm də ölkədə 30 gün qaldıqdan sonra Daxili İşlər Nazirliyində məcburi qeydiyyatdan keçməyi nəzərdə tutur. Onun sözlərinə görə, bu tədbir miqrasiyaya nəzarətin effektivliyini artıracaq.

İlin əvvəlindən Qazaxıstana 12 minə yaxın Ermənistan vətəndaşı daxil olub.

## Bu gün yağış yağacaq



**Sentyabrın 4-də gözlənilən hava şəraiti açıqlanıb. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi yerlərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi axşam mülayimləşəcək.**

Havanın temperaturu gecə 20-24, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 755 mm civə sütunundan 758 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 70-75 %, gündüz 50-55 % təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi, gecə və səhər bəzi yerlərdə duman olacağı ehtimalı var. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 18-23, gündüz 32-37, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacaq.

## Bakıdan həbsdəki ermənilərlə bağlı İrəvana zəng

**Avqustun 30-da Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında telefon danışığı olub.**

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın "Hraparak" nəşri məlumat yayıb. Qeyd olunub ki, tərəflər Bakıdakı ermənilərlə bağlı məsələni müzakirə ediblər.

Buna səbəb ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda Nikol Paşinyanla görüşü zamanı səsləndirdiyi fikir olub. Tramp ona müraciət edərək deyib: "Siz deyirsiniz ki, 23 xristian erməni var? Onların buraxılmasını xahiş edəcəyəm. Düşünürəm ki, bunu mənim yerimə edəcəklər".

Erməni KİV iddia edib ki, Bakı qarşı tərəfi separatçılardan imtina etməyə çağırıb və bunun Ermənistan və Azərbaycan arasında münasibətlərin tənzimlənməsinə xələl gətirdiyini vurğulayıb.

Bundan sonra məlum olub ki, Ermənistanın indiki hakimiyyəti Bakıdakı ermənilərin azad edilməsi üçün ciddi mübarizə aparmaq niyyətində deyil.

## 6 ayda 1300-ə yaxın şəxs ad-soyad, ata adını dəyişib

**Azərbaycanda ad və soyadı, ata adını dəyişmək mümkündür. 18 yaşına çatdıqdan sonra hər bir Azərbaycan Respublikası vətəndaşı öz adını, ata adını və soyadını özü şəxsən dəyişdirə bilər.**

Bu gün Ali Məhkəmə ad, soyad və ata adının dəyişdirilməsi ilə bağlı vahid təcrübə müəyyən edib.

Qərarda bildirilib ki, ad, soyad və ata adının dəyişdirilməsi şəxsi kimliyin mühüm hissəsidir, sadəcə, zövq və emosional səbəblərlə dəyişiklik etmək kifayət deyil, yalnız real və əsaslı məhrumiyyətlər olduqda dəyişdirilə bilər.

Modern.az mövzunun aktuallığını nəzərə alaraq bu il soyadı, adı və ya ata adı dəyişdirənlərin sayını öyrənmək üçün Ədliyyə Nazirliyinə sorğu göndərib.

Qurumdan bildirilib ki, cari ilin ilk 6 ayı ərzində 1269 nəfərin soyadı, adı və ya ata adı dəyişdirilib.

Qeyd edək ki, 2024-cü il ərzində qeydiyyat orqanları tərəfindən 2667 şəxsin soyadının, adının və ya ata adının dəyişdirilməsi rəsmiləşdirilib.

Ad, soyad və ata adını dəyişdirmək üçün dövlət rüsumu 15 manatdır.

## Gədəbəydə kişi dağdan yıxılaraq ölüb

**Gədəbəydə bədbəxt hadisə baş verib. APA-nın yerli bürosunun məlumatına görə, hadisə rayonun Qala kəndində, Yoğdu dağ adlanan ərazidə qeydə alınıb. Rayon sakini 1970-ci il təvəllüdlü Y.Yolçuyev dağdan yıxılıb. O, aldığı xəsarətlərdən hadisə yerində həyatını itirib. Məlumata görə, Y.Yolçuyev dağdan çiçək yığan zaman ehtiyatsızlıqdan yıxılıb. Faktla bağlı araşdırma aparılır.**

## 61 yaşlı kişi arı sancmasından öldü

**İsmayıllıda 61 yaşlı kişi arı sancmasından ölüb. APA-nın Şirvan bürosu xəbər verir ki, hadisə sentyabrın 2-də İsmayıllı rayonunun Mican kəndində qeydə alınıb. Kənd sakini, 61 yaşlı Murad Hümmətov yaşadığı evin həyətində dilindən arı sancması nəticəsində ölüb.**

# Bəzi nazirlik və qurumların ləğvinə çağırış - qənaət, yoxsa...

## Büdcəyə yük olan dövlət strukturlarının birləşdirilməsi təklif olunur; islahatlar bu orqanlara da çata bilər - ekspertlərdən rəy



**Son günlər bəzi dövlət qurumlarının və komitələrin ləğv edilməsi ilə bağlı müzakirələr gündəmdədir. Deputat Fazil Mustafa Demokrat.az-a bildirib ki, bir sıra qurumlardan, ali məktəblərdən tutmuş dövlət orqanları, publik hüquqi şəxslərə qədər bəzilərinin niyə mövcud olduğunu məntiqi cəhətdən izah etmək çətindir.**

"Hər halda, dövlət qurumları məsələyə effektiv fəaliyyət baxımından yanaşmalıdır. Məntiqli izah verilməlidir, başqa ölkələrdə müqayisədə faydalı tərəfləri nədir, bu araşdırılmalıdır. Bu məsələ ətrafında, məncə, ciddi müzakirələr aparılmalıdır. Büdcə vəsaitinin daha az sərf olunması və daha effektli idarəetmə modeli üzərində düşünülməlidir".

**Deputat Tahir Rzayev isə həmkarının fikirləri ilə razılaşmayıb. O qeyd edib ki, insanlar çox vaxt fikir söyləyəndə reallıqları, günün tələblərini nəzərə almırlar:** "Deyirlər, filan qurum ləğv olunmalıdır, filan komitəyə ehtiyac yoxdur. Ancaq bütün bunlar araşdırılır. Vaxtı gələndə əgər hansısa agentlik və ya komitə öz fəaliyyətini düzgün qura bilmirsə, yaxud əhəmiyyətini itiribsə, onun birləşdirilməsi və ya ləğvi həyata keçirilir. Nazirliklərdən ayrı fəaliyyət göstərən qurumların ləğv edilməsi doğru deyil. Bəzən deyirlər ki, icra hakimiyyətləri ləğv olunsun, onların səlahiyyətləri bələdiyyələrə verilsin. Amma sual yaranır: bələdiyyələr bu funksiyaları icra edə bilərmi? Bilirsiniz, fikir söyləmək asandır, amma onun arxasında həll və yol göstərmək dayanmalıdır. Bəs bu qurumlarda çalışan insanlar? Bir tərəfdən deyirlər, iş yerləri açılmalıdır, digər tərəfdən isə qurumların ləğvi təklif olunur. O zaman bu insanların taleyi necə olacaq? Onlar harada işləməlidirlər?"

Qeyd edək ki, bir neçə il əvvəl bir sıra qurumlar ləğv edildi, struktur birləşməsi aparıldı. Son olaraq vergi xidməti İqtisadiyyat Nazirliyinə verilib. Ancaq yenə də təkliflər səslənir ki, gömrük və digər sahələr də bir qurumda birləşdirilsin. Bu da büdcə xərclərinə qənaət cəhətdən vacibdir. Dövlət qurumlarının ləğv olunması birmənalı şəkildə büdcə kəsirinin aradan qaldırılmasına yardım edə bilər. Eyni zamanda bu, korrupsiyaya qarşı mübarizənin də gücləndirilməsinə şərait yaradacaq.

Real Alternativ Partiyasının (ReAL) sədri, iqtisadçı ekspert Natiq Cəfərli də bu günlərdə bu məsələyə diqqət çəkib. O, icra hakimiyyətləri institutunun ləğv edilməsinin tərəfdarıdır.

Ümumiyyətlə, struktur islahatlarının gətirəcəyi faydalardan biri də ölkədə biznes mühitinin daha da təkmilləşdirilməsi və rəqabətin gücləndirilməsindən ibarətdir. Çünki yığcam və məqsədyönlü dövlət aparatı özəl sektorun fəaliyyətinə müdaxiləni minimuma endirməklə daha çox bazar tənzimlənməsinə şərait yaradır. Beləliklə, dövlət və bazar tənzimlənməsinin optimal nisbəti müəyyənləşir ki, bu da özəl sektorun lokomotiv olduğu iqtisadi inkişafı təmin edir.

**İqtisadçı Xalid Kərimli "Yeni Müsavat"a bildirdi ki, Azərbaycanda dövlət sektoru böyükdür. Onun fikrincə, bunun bir neçə səbəbi var**: "Səbəblərdən biri dövlətin həddən artıq güclü olması, hər şeyə müdaxilə etməsi, hər şeyi tənzimləməsi ilə bağlı düşüncədir. Bu, müstəqillikdən önceki zamandan, yəni SSRİ dövründən qalma ənənədir. Hesab edirəm ki, bu, tamamilə səhv yanaşmadır. Dövlət kiçilməlidir, tənzimləmələr azaldılmalıdır. Dövlətin rolu məhdudlaşdırılmalıdır. Bu, özəl sektora həvalə edilməlidir. Dövlət klassik funksiyalarına yönəlməlidir. Digər yanaşmaya görə, qurumların çoxluğu məşğulluq üçün faydalıdır, lakin nəticə qeyri-effektivdir. Hətta bəzi dövlət agentlikləri əmək bazarında özəl sektorla rəqabət aparır, işçiləri "oğurlayır". Yəni publik hüquqi şəxs olan agentliklər istədikləri əməkhaqqını tələb edə bilirlər. Publik hüquqi şəxslər əsasən monopolistlərdir. Əməkhaqları neft gəlirlərinin daxil olduğu büdcə hesabına ödənir. Bu da nəticə etibarilə qeyri-effektiv nəticə verir. Əmək bazarının strukturuna baxsaq, hər zaman dövlət qurumlarında işləyən işçilərin sayı ümumi faiz nisbətində 50 faizdən çox olub. Hazırda isə bu rəqəm 49,5-dir. Bazar iqtisadiyyatı, mülkiyyətin 80 faizi özəldir kimi məsələlərdən danışdığımız zamanda iş yerləri dövlət və özəl sektor arasında demək olar ki, bərabər bölünüb. Bu, həm özəl sektorun zəif inkişaf etdiyini, həm də dövlət sektorunun mənasız böyük olduğunu göstərir".

**İqtisadçı hesab edir ki, dövlət sektorunun kiçilməsi işsizlik problemi yarada bilər, amma dövlət effektiv işsizlik proqramları həyata keçirməklə, uzunmüddətli müavinətlər verməklə mənfi təsirləri azalda bilər:** "İnsanları görüntü üçün məşğul olmağa cəlb etmək həm onların potensialının inkişaf etməsinə imkan vermir, həm əmək bazarında yalançı tarazlıq yaradır, eyni zamanda dövlət büdcəsinin resurslarının davamlı sərf olunmasına gətirib çıxarır. Son illərdə yaradılan qurumların əməkdaşları cəmiyyət üçün ciddi fayda yaratmırlar. Neft və qaz hasilatı azaldıqca gəlirlər də azalacaq, odur ki, dövlət indidən qeyri-neft iqtisadiyyatına hazırlaşmalıdır. Özəl sektor inkişaf etməlidir, dövlət sektorunun böyük olması buna mane olur. Odur ki, əsaslı islahatlar həyata keçirilməlidir. Bizim məmurlar islahat sözünü mənasızdan uzaq formada təkrar edirlər. Mən son 10 ildə iqtisadiyyat sahəsində əhəmiyyətli islahat müşahidə etməmişəm".

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"

# Deputatdan xəbərdarlıq: "15 sentyabrdan daha pis olacaq"


Razi Nurullayev

**"Keçən payız Sumqayıt-Bakı yolunda sıxlıq Xırdalan qəbiristanlığı və ya ekoloji postun yanında başlayırdı. Bu il sentyabrda isə az qala Mühəndislik Universitetinin yanında başlayır. Şəhər ətrafında yaşayanlar üçün şəhərə gəlmək böyük problemdir". Axar.az xəbər verir ki, bu barədə millət vəkili Razi Nurullayev bildirib.**

"Binəqədi yolundan da keçmək mümkün deyil. İki aydır ki, yol qazılır, amma bir türlü başa çatdırılmır. Bir km yolu qazıb kanalizasiya borusu basdırmaq bu qədərmi çəkməlidir?

Nəqliyyat və yol ilə bağlı işlər görülür, məncə, işlərin daha da sürətlənməsi və 24 saatlıq iş rejiminə keçməsi lazımdır ki, layihələr daha tez bitsin. Düşünürəm ki, 15 sentyabrdan sonra (orta və ali məktəblərdə dərslər 15 sentyabrda başlayır - red.) daha ağır vəziyyətlə üz-üzə qalacağıq", - o qeyd edib.

# Bakıda səfirlik işçisi məhkəmədə - yarım milyonluq iş



**Bakı Ağır Cinayətlər Məhkəməsində ABŞ-nin Azərbaycandakı səfirliyinin təsərrüfat şöbəsinin məsul əməkdaşı Rafiq Göyüşovun cinayət işi üzrə məhkəmənin hazırlıq iclası keçirilib.**

Musavat.com xəbər verir ki, hakim Anar Sadıqovun sədrliyi ilə keçirilən prosesdə müttəhimin anket məlumatları dəqiqləşdirilib.

Rafiq Göyüşovun vəkili İlham Əsədov bildirib ki, ABŞ səfirliyi müvəkkilindən şikayətçi deyil. Mövqeləri də belədir ki, bir təqsiri varsa cəzası verilsin. Vəkil vəsatət verərək cinayət işinin ibtidai istintaqa geri qaytarılmasını istəyib. Məhkəmə vəsatəti təmin etməyib. Məhkəmə cinayət işinin baxışa verilməsi ilə bağlı qərar qəbul edib.

Musavat.com xəbər verir ki, ittihama görə, Rafiq Göyüşov yarım milyon manatdan çox dələduzluqda ittiham olunur. O, xaricdən gələn səfirlərin və digər əməkdaşların müvəqqəti yerləşdirilməsi üçün ayrılan vəsaitlərin mənimsənilməsində ittiham olunur.

İttihamda Rafiq Göyüşovun ABŞ səfirliyinin qonaqları tutulan kirayə mənzillərə görə ayrılan vəsaitlərin bir qismini mənimsədiyi göstərilir. Belə əməllərə yol verilməklə yarım milyon manatdan artıq vəsaitin mənimsənildiyi iddia olunur. 20 il ABŞ səfirliyində çalışmış Rafiq Göyüşova qarşı Cinayət Məcəlləsinin 178.4-cü (dələduzluq xüsusilə külli miqdarda) maddəsi ilə ittiham irəli sürülüb. Onun barəsində polis nəzarəti növündə həbs-qətimkan tədbiri seçilib. Faktla bağlı araşdırma Daxili İşlər Nazirliyinin Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi aparılıb. İş üzrə ABŞ səfirliyi işdə zərərçəkmiş tərəf kimi tanınıb. Rafiq Göyüşovun vəkili İlham Əsədov Musavat.com-a məhkəmədən öncə bildirib ki, müvəkkili ittihamlarla razı deyil. Növbəti məhkəmə prosesi sentyabrın 17-nə təyin edilib.

# Məşhur tiktoker həbs edildi


Xosrov Moslemi

**Məşhur tiktoker Xosrov həbs edilib. Bakupost.az xəbər verir ki, sosial şəbəkələrdə sürücüləri yol hərəkəti qaydalarını pozmağa və avtoxuliqanlığa təhrik edən, həmçinin özü də bu davranışları həyata keçirən Xosrov Bebek oğlu Moslemi Binəqədi Rayon Polis İdarəsinin (RPİ) Dövlət Yol Polisi (DYP) Şöbəsinin əməkdaşları tərəfindən saxlanılıb.**

O, avtoxuliqan davranışları və yol hərəkəti qaydalarını pozması nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri əsasında inzibati protokol tərtib edilib və məsələyə baxılması üçün məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə Xosrov Bebek oğlu Moslemi inzibati qaydada həbs edilib.

YENİ MÜSAVAT
N 157 (8767) 4 sentyabr 2025

# Azərbaycana bitməyən hücumlar - Moskvanın dərdi nə?

## Şimal qonşumuz ölkəmizə qarşı total hibrid müharibə açıb; **Azər Həsrət:** “Rusiya gülləni öz ayağına sıxır”

**Rusiya ərazisindən Azərbaycana qarşı kütləvi surətdə informasiya kampaniyasına start verilib. Bu barədə Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiyasının bəyanatında qeyd olunub. Bildirilib ki, kampaniya avqustun 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanının “Əl-Ərəbiyyə” telekanalına müsahibəsi yayılandan dərhal sonra başlayıb:**

“Monitorinq zamanı müəyyən edilib ki, aparıcının Zəngəzur dəhlizi ilə bağlı sualına Azərbaycan Prezidentinin tarixi faktlara əsaslanan cavabı kontekstdən çıxarılaraq saxtalaşdırılmış və ya təhrif olunmuş formada rus oxucusuna təqdim edilir. Rusiya cəmiyyətində anti-Azərbaycan təbliğatını alovlandırmaq məqsədilə təşkil edilən kampaniya televiziya kanalları və xəbər saytları, sosial media platformaları və müəyyən təsiretmə roluna malik radikal mövqeli şəxslər vasitəsilə aparılır. Kampaniyada Rusiya ərazisində fəaliyyəti qadağan edilmiş və məhdudlaşdırılmış Facebook, Instagram və X kimi platformalardan, habelə digər ölkə vətəndaşlarının adından yaradılan sosial media profillərindən və botlardan da geniş istifadə olunduğu müşahidə edilir".

Bildirilib ki, kampaniyada diqqət çəkən digər element isə Azərbaycanın sosial media seqmentinin hədəfli reklamlar vasitəsi seçilməsi və orada ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı təhdidedici fikirlərin yer almasıdır: “Onu da qeyd etməliyik ki, bu cür ikrah doğuran kampaniyaların Azərbaycanda ictimai rəyə heç bir təsiri yoxdur. Bu cür fəaliyyətlər yalnız Rusiya cəmiyyətini yalan faktlara söykənərək qızışdırmağa, qonşu dövlətlərlə əsassız düşmənçiliyə sürükləyir. Rusiyanı narahat edən "rusofobiya" sindromunun köklərini “Z” blogerlərin fəaliyyətində axtarmaq lazımdır. Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı komissiya aidiyyəti dövlət qurumları ilə birgə dövlətimizə qarşı aparılan bu qeyri-dost hərəkətləri yaxından izləyir və müvafiq qabaqlayıcı tədbirləri davam etdirir".

Göründüyü kimi, Rusiya həm Azərbaycana qarşı hibrid qarayaxma kampaniyasını davam etdirir, həm də hökumət rəsmiləri, Duma üzvləri münasibətlərin yaxşılaşması üçün addımlar atıldığını bildirir. Əgər Moskva əlaqələrin yoluna düşməsində maraqlıdırsa, bu total kampaniyanı dayandırardı.

Deməli, Rusiya həm də gərginliyin azalmasını istəmir, ancaq buna görə Azərbaycanı ittiham edir. Halbuki Bakının münasibətlərin yaxşılaşması üçün gözləntiləri var. Üstəlik, təkcə Prezidentin son müsahibəsindən sonra bu kampaniya başlamayıb, ümumiyyətlə, dayanmayıblar, buna qədər də Azərbaycana təhdidlər yağdırılıb, Ukraynadakı enerji mərkəzlərinə hücum olunub, Kiyevə raket zərbəsi zamanı onlardan biri səfirliyimizin binasına zərər vurub, ayrı-ayrı rus fəalları Azərbaycanı bombalamağa çağırır.



Parlamentin bu bəyanatından görünür ki, gərginlik artmaqdadır və gərginliyi Rusiya mediası artırır və böhran vəziyyəti yaradılır.

Bəs Azərbaycan-Rusiya böhranı necə həllini tapa bilər?

**Siyasi şərhçi Azər Həsrət “Yeni Müsavat”a bildirdi ki, Rusiya indiki mürəkkəb vəziyyətində özəlliklə Azərbaycan kimi qonşularına diş qıcamamalıdır. Onun fikrincə, şimal qonşumuzun bizə çox ciddi ehtiyacı var:** “Tarixin heç bir mərhələsində olmadığı qədər ehtiyacı var. Buna baxmayaraq, Kremldən verilən tapşırıqlar və təlimatlarla Rusiyanın aparıcı dövlət mediasında anti-Azərbaycan kampaniyası həyata keçirilir. Azərbaycan təbii ki, bundan qorxmur və bu kampaniyanın qarşısında geri çəkilməyəcək. Artıq elə bir zamana gəlib çıxmışıq ki, dövlətlərin böyük və ya kiçik olması heç nəyi həll etmir. Dövlətlərin qərarlı olması, öz ayağı üstündə dura bilməsi həlledici faktordur”.

**A.Həsrət hesab edir ki, Azərbaycan dünyaya səs salmış, öz ayaqları üstündə möhkəm dura bilən, bir nömrəli qlobal güc olan ABŞ-nin, eləcə də daha bir qlobal güc olan Çinin hesablaşdığı bir dövlətdir:** “Belə bir şəraitdə axmaq olmalısan ki, Azərbaycanın üzərinə hücuma keçəsən. Əlbəttə ki, bu gün Rusiyadan Azərbaycana nə qədər hücum kampaniyası həyata keçirilsə də, münasibətlər əbədi olaraq belə gərgin qalmayacaq. Günün birində münasibətlər düzələcək”.

**Siyasi şərhçi vurğuladı ki, hazırkı vəziyyətdə Rusiyanın apardığı indiki çirkin qaralama kampaniyası Azərbaycanın Rusiyadan daha da uzaqlaşmasına töhfə verir:** “Şəxsən buna sevinirəm. Sevinirəm ki, Rusiya gülləni öz ayağına sıxır, özünü bizdən uzaqlaşdırır, öz xəta-bəlasını başımızdan rədd edir. Azərbaycan bundan da ağır kampaniyalar görüb, cavabını verib, qarşısında duruş gətirib və qalib də çıxıb. Bu qarayaxma hücum kampaniyasından da təbii ki, Azərbaycan qalib çıxacaq”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Rusiyada qadınlara zorakılığa dözmək təbliğ olunur - skandal

## Əhali arasında “Ərim məni döyərsə, nə etməliyəm?” adlı broşur peyda olub - psixoterapevt rəyi

**Rusiyada “Ərim məni döyərsə, nə etməliyəm?” adlı broşur peyda olub. Tövsiyələr özünü psixoloji təhsil və təkmilləşdirmə mərkəzi kimi təqdim edən “Ünsiyyət Akademiyası” tərəfindən hazırlanıb. Hərbi qulluqçuların arvadları üçün nəzərdə tutulan sənəddə şok “məsləhətlər” yer alır. Qadınlara aşağıdakılar tövsiyə olunur:**




“Stress” yaşayan ərlərinə haqq qazandırmaq; “onun karyerasını korlamamaq” üçün məsələni ictimailəşdirməmək; həyati təhlükəsi yoxdursa, zorakılığa dözmək; zədə izlərini makiyajla maskalamaq; “aqressiyaya səbəb olmamaq üçün” parlaq paltar və makiyajdan qaçmaq; öz davranışlarını təhlil etmək və döyülmə səbəblərini özündə axtarmaq; ərindən bağışlanma diləmək.

Beləcə, “təlimatlar” günahı təcavüzkardan qurbanın üzərinə keçirir və qadınları zorakılığa dözməyə çağırır, bunu da “döyüş stressi” ilə əsaslandırır.

Bu nə məsləhətlərdir belə? Rusiya cəmiyyəti hara yuvarlanır? Ər arvadını döyürsə, qadın ilk növbədə nə etməlidir?

Psixoloqlar hesab edirlər ki, bu kimi yanaşmalar qadınları ciddi təhlükə qarşısında qoyur. İnsan hansı şəraitdə olursa-olsun, zorakılığa haqq qazandırmaq olmaz. Döyüş meydanında yaşanan travmaların evə daşınması, qadın və uşaqların “emosional boşaltma obyekti” kimi seçilməsi ailə institutunu dağıdır.

Bundan başqa, ekspertlər qeyd edir ki, Rusiya hakimiyyəti üçün hazırda ən həssas təbəqə cəbhədən qayıdan və ya hərbi xidmətə göndərilən ailələrdir. Cəmiyyətdə yığılan narazılığı yönləndirmək və ictimai təzyiqi azaltmaq üçün hökumət “döyüş stressi” anlayışını legitimləşdirir. Qadınlara verilən bu “məsləhətlər” əslində dövlətin öz məsuliyyətini ailələrin üzərinə atması deməkdir.

Əslində hərbçilərin ailələrinə psixoloji və sosial dəstək göstərmək, zorakılığın qarşısını almaq dövlətin borcudur. Amma bu borcu yerinə yetirmək əvəzinə, “zərbəni yumşaltmaq” üçün qadınlardan susmaq, dözmək, üzr istəmək tələb olunur. Bu, siyasi manipulyasiyanın bir formasıdır: cəmiyyətin real problemləri üzə çıxmasın, döyüşün ağır nəticələri ictimailəşməsin, narazılıq dövlət strukturlarına yönəlməsin.

Beləliklə, “broşura” həm psixoloji baxımdan insanları zorakılığa öyrəşdirir, həm də siyasi baxımdan Kremlin “daxili sabitliyi qorumaq” siyasətinə xidmət edir.

**Mövzu ilə bağlı klinik psixoloq, psixoterapevt Rövşən Nəcəfov “Yeni Müsavat”a bildirib ki, döyüş stressi bütün hallarda həm fizioloji, həm də psixoloji travmalara səbəb olur:** “Onun fəsadlarını isə yaxın gələcəkdə istər fərdi olaraq insanlar, istərsə də cəmiyyət bütövlükdə görəcək. Heç bir halda, istər qadına, istərsə də kişiyə qarşı şiddəti dəstəkləmək olmaz. Döyüş meydanı yalnız döyüşçülərə məxsusdur. Sosial və ictimai həyatımızda isə biz "döyüş meyi" normal hal kimi qəbul edə bilmərik. Hazırda Rusiya cəmiyyətində “döyüş stresi” anlayışının ictimailəşməsi əslində yaranmış vəziyyətin idarə olunması üçün atılan addımdır.

Lakin bu, yalnız “kosmetik düzəlişlər” səviyyəsindədir. Kosmetik olaraq dəyişdirilən düşüncə insanın sağlam təfəkkürünü ifadə edə bilməz. Cəmiyyəti xəstə təfəkkürə alışdırmaq olmaz. İnsanların düşüncəsi komfort zonaya düşəndə onlar hər şeyə adaptasiya ola bilirlər. Amma gələcəkdə bu adaptasiya olunmuş vəziyyətin mütləq mənfi nəticələri ortaya çıxacaq. Əslində yaranmış avtomatik düşüncələr reallıqla uyğun gəlmir və bu, mütləq sorğulanmalıdır. Onların yerinə müsbət, sağlam alternativ düşüncələr formalaşdırılmalıdır. Reallığa uyğun gəlməyən davranış və fikirlər sağlam düşüncə yaratmır. Cəmiyyəti mənfi inanclar üzərindən idarə etmək olmaz".

**Psixoloq qeyd edib ki, əgər ər arvadını və ya arvad ərini döyürsə, yəni istər fiziki, istərsə də psixoloji zorakılıq mövcuddursa, bu, hüquqi müstəvidə həll olunmalıdır:** “Psixologiyanın sərhədi hüquqla bitir. Əgər qadın həyat yoldaşı tərəfindən şiddətə məruz qalırsa, o, həmin münasibətdən ayrılmalı və aidiyyəti dövlət qurumlarına müraciət etməlidir. İnsanın ən böyük haqqı yaşamaqdır. Heç bir şəraitdə bu haqqa qəsd olunmasına haqq qazandırmaq olmaz”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

# Daha bir ölkə “Putin ittifaqı”nda - Azərbaycandan gözlənti

## Gələn ay Düşənbədə həm MDB dövlət başçılarının sammiti, həm də “Rusiya-Mərkəzi Asiya” görüşü keçiriləcək; o vaxta qədər Bakı-Moskva münasibətləri düzəlməsə...



**Rusiya Prezidenti Vladimir Putinin oktyabrın 10-da Tacikistana səfər edəcəyi gözlənilir. Putinin Düşənbə səfəri çərçivəsində həm MDB dövlət başçılarının sammiti, həm də “Rusiya-Mərkəzi Asiya” görüşü keçiriləcək. Məlumata görə, səfər zamanı mühüm açıqlama gözlənilir. “Nezavisimaya qazeta” yazır ki, Tacikistan Prezidenti Emoməli Rəhmon həmin gün ölkəsinin Avrasiya İqtisadi İttifaqına (AİI) üzvlüyünü elan edə bilər.**

Avrasiya İqtisadi İttifaqı 2015-ci ildə yaradılıb. Onun əsas təşəbbüskarı Rusiya olub. “Putin ittifaqı” kimi tanınan təşkilatın hazırkı üzvləri Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Ermənistandır. Düşənbədə keçiriləcək MDB dövlət başçılarının sammitində Azərbaycan Prezidentinin iştirak edəcəyi məlum deyil.

Analitiklərə görə, Azərbaycan Prezidenti ötən il Sankt-Peterburqda keçirilən toplantıya gedən gün mülki təyyarəmiz vurulub və dövlət başçısı elə həmin gün yoldan qayıdaraq Bakı aeroportunda müşavirə keçirib. Bu hadisədən sonra Azərbaycan-Rusiya münasibətləri korlanıb və indiyə qədər gərginlik davam etməkdədir.

Prezident sonuncu dəfə bu haqda “Əl-Ərəbiyyə” telekanalına danışıb, Rusiyanın azərbaycanlılara qarşı zorakılıq hallarını pisləyib, bu hörmətsizliyə dözümsüz yanaşacağımızı vurğulayıb, təyyarə ilə bağlı tələbləri xatırladıb. Odur ki, Düşənbə sammitində iştirak da sual altındadır.

Çində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısından fərqli olaraq, MDB dövlət başçılarının sammiti formallıq təşkil edir, əsasən də Rusiya Prezidentinin dominantlığı ilə baş tutur. Əgər o tarixə qədər Bakı-Moskva münasibətlərində yenilik olmasa, sammitdə iştirak real görünmür.

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov** “Yeni Müsavat”a bildirdi ki, mülki təyyarəmizin vurulması Azərbaycan-Rusiya münasibətlərinə dərin kölgə salıb: “Prezidentin həmin gün səfərini yarımçıq saxlayaraq Bakıya qayıtması və təcili müşavirə keçirməsi göstərdi ki, məsələ, sadəcə, texniki qəza kimi qəbul edilə bilməz. Bu, dövlətlərin münasibətlərinə birbaşa təsir edən siyasi hadisə idi. Azərbaycan cəmiyyəti və rəhbərliyi Rusiyadan açıq mövqe gözlədi. Lakin Moskvanın reaksiyası kifayət qədər qeyri-müəyyən olmadı. Prezident İlham Əliyev "Əl-Ərəbiyyə" telekanalına müsahibəsində bunu açıq şəkildə ifadə edərək, azərbaycanlılara qarşı zorakılıq hallarını pislədi və Rusiyanın məsuliyyətini xatırlatdı. Bu çıxış Azərbaycanın öz maraqlarını müdafiə etməkdə nə qədər qəti olduğunu göstərdi".

**Onun sözlərinə görə, hadisədən sonra münasibətlərin daha da çətinləşməsinə başqa amillər də əlavə olundu:** “Rusiya daxilində azərbaycanlı diplomatların, biznesmenlərin və diaspora nümayəndələrinin müəyyən strukturlar tərəfindən təzyiqə məruz qalması gərginliyi artırdı. Bu cür təzyiqlər qarşılıqlı inamı daha da zəiflətdi. Azərbaycan rəhbərliyi açıq şəkildə başa düşürdü ki, bu, dostluq və strateji tərəfdaşlıq prinsiplərinə uyğun davranış deyil. Bütün bu gərginliklərə baxmayaraq, Azərbaycan praqmatik siyasətini davam etdirir. Bakı üçün Moskva ilə açıq münaqişə ssenarisi heç vaxt məqsədəuyğun olmayıb. Azərbaycan balanslı və çoxvektorlu xarici siyasət kursu yürüdür. Bu kurs həm Qərblə, həm də Şərqlə münasibətləri tarazlamağa imkan verir. Ona görə də Azərbaycan siyasi rəhbərliyi hər zaman dialoq qapılarını müəyyən qədər açıq saxlayır. Dövlət komissiyaları, hökumətlərarası mexanizmlər və diplomatik kanallar vasitəsilə əlaqələr davam etdirilir”.

**Partiya funksioneri vurğuladı ki, Rusiya postsovet məkanında təsir dairəsini gücləndirmək üçün müxtəlif alətlərdən istifadə edir:** “Avrasiya İqtisadi İttifaqı da bu siyasətin bir hissəsidir. Moskva bu qurum vasitəsilə iqtisadi və siyasi nüfuzunu artırmağa çalışır. Azərbaycan isə bu proseslərdə ehtiyatlı davranır. Bakı nə Moskvanın təsirinə tam daxil olur, nə də açıq şəkildə qarşıdurmaya gedir. Bu, Azərbaycan diplomatiyasının ən mühüm xüsusiyyətlərindən biridir”.

**Ekspert bir məsələyə də xüsusi diqqət çəkdi:** “MDB sammitləri ilə müqayisədə Şanxay Əməkdaşlıq Təşkilatının zirvə toplantıları Azərbaycanın daha aktiv iştirak etdiyi platforma kimi görünür. Çünki ŞƏT-də Çin, Hindistan, Pakistan, Türkiyə kimi müxtəlif güc mərkəzləri təmsil olunur və burada Rusiyanın dominantlığı MDB-dən fərqli olaraq məhdudlaşdırılıb. Azərbaycan da bu formatda özünü daha rahat hiss edir. MDB tədbirləri isə daha çox Moskvanın təsir meydanı kimi qəbul edilir. Bütün bu şərtlər fonunda Düşənbədə keçiriləcək sammitdə iştirak məsələsi tamamilə proseslərin gedişatından asılıdır. Əgər o vaxta qədər Azərbaycan-Rusiya münasibətlərində müsbət dəyişikliklər baş verməsə, Azərbaycan Prezidentinin tədbirdə iştirakı real görünmür. Çünki belə toplantılar, xüsusilə MDB sammitləri əksər hallarda formal xarakter daşıyır və Rusiyanın dominantlığı ilə müşayiət olunur. Bakı üçün isə formal iştirak deyil, real nəticə və bərabərhüquqlu əməkdaşlıq vacibdir”.

Azərbaycan gələcəkdə də öz balans siyasətini davam etdirəcək. Rusiya ilə münasibətlərdə münaqişədən qaçmaq, amma eyni zamanda milli maraqları güzəştə getməmək Bakının əsas xəttidir. “Putin ittifaqı” fonunda Azərbaycanın mövqeyi həm ehtiyatlı, həm də prinsipialdır. Bakı qonşuluq münasibətlərini qoruyur, lakin heç vaxt başqa bir dövlətin təsir dairəsinə tam daxil olmağı qəbul etmir. Azərbaycanın beynəlxalq siyasətdəki əsas gücü də məhz müstəqilliyini qorumaq bacarığıdır”.

**Siyasi təhlilçi Sona Əliyeva isə hesab edir ki, Tacikistan bu təşkilata üzv olarsa, bunu sensasiya kimi qəbul etmək lazım deyil:** “Azərbaycan Prezidenti İlham Əliyevin "Rusiya-Mərkəzi Asiya görüşü"ndə iştirakı gözlənilmir. Daha doğrusu, hələ ki bu real deyil. Ötən ilin dekabrından Bakı ilə Moskva arasındakı münasibətlər korlanıb. Əgər Rusiya Azərbaycandan üzr istəməsə, o zaman münasibətlər donmuş vəziyyətdə qalacaq. Azərbaycan özü təkbaşına Orta Asiya ilə münasibətlərini yüksəltməkdədir. Qazaxıstan, Qırğızıstan və Özbəkistanla Türk Dövlətləri Təşkilatının çətiri altında son illərdə çoxşaxəli əlaqələr daha da inkişaf edib. Türkmənistanla enerji sahəsində əlaqələr də yeni mərhələyə qədəm qoyub. Hətta Tacikistanla da külək enerjisinin istismarı ilə bağlı önəmli razılaşmalar var. Azərbaycan Tacikistan iqtisadiyyatına önəmli yatırımlar edir. Bir sözlə, Bakı Orta Asiya ölkələri ilə qarşılıqlı maraqlar çərçivəsində öz əlaqələrini daha da möhkəmləndirir. Tacikistan isə bu vaxta qədər qeyri-rəsmi formada Avrasiya İqtisadi İttifaqının imkanlarından yararlanıb. Sanksiya tətbiq olunan Rusiya məhsulları Cənub-Şərqi Asiya bazarına məhz Tacikistan vasitəsilə çıxarılıb. Düşənbə bu işdə tranzit rolunu oynayıb. Yeni Tacikistanın bu təşkilata qoşulması o qədər də sensasiya sayılmayacaq. Onsuz da bu ölkə Rusiyanın qanadları altındadır və KTMT-nin də üzvüdür".

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

# Sabir Rüstəmxanlı: "Valideynlər rusdilli məktəb üçün "yaxasını cırır""



**“Bir dəfə yanımda əyləşən cavan uşaqların rus dilində danışdıqlarının şahidi oldum. Onlardan azərbaycanlı olub-olmadıqlarını soruşdum. Azərbaycanlı olduqlarını dedilər. Sual verdim ki, niyə öz dilimizdə danışmırsınız? Cavabları maraqlı idi. Dedilər ki, Sabir bəy, bu sualı biz sizə verməliyik. Bizim nə günahımız var ki, ağlımız kəsməyəndə rusdilli məktəbdə təhsil almalı olmuşuq”.**

Bu sözləri Kult.az-a açıqlamasında xalq şairi Sabir Rüstəmxanlı bildirib. O deyib ki, valideyn şüurlu şəkildə övladını öz ana dilində olan məktəbdə oxutmalıdır: “İndi valideynlər uşaqlarını rusdilli məktəbdə oxutmaq üçün yaxasını cırır. Bəziləri öz dilimizdə utana-utana, iyrənə-iyrənə danışır. Halbuki bizim möhtəşəm, gözəl və aydın dilimiz var. Ən əsası dilimiz müstəqil, qalib dövlətin, qürurlu xalqın dilidir. Azərbaycan dilinə niyə bu qədər hörmətsizlik edirlər?

Sovet dövründə bütün tədbirlər, yığıncaqlar, iclaslar rus dilində keçirilirdi. Ona görə xalq arasında rus dilinə üstünlük verilməsi normal idi. İndi vəziyyət fərqlidir. Rəsmi dilimiz Azərbaycan türkcəsidir. Ölkənin hər yerində ana dilimizdən istifadə olunur. Ancaq tədbirdə, iclasda, qurumlarda ana dilimizdə danışanlar gedib öz evdə, öz ətrafı ilə rusca danışır".

Xalq şairi qeyd edib ki, ölkədə ana dili ilə bağlı çox ciddi tədbirlər görülməlidir: “İlk növbədə dövlətin maliyyələşdirdiyi bütün təhsil dövlət dilində olmalıdır. Kim rusdilli və ya ingilisdilli məktəb istəyirsə, getsin, pulunu ödəsin. Bu təklifim ali təhsil müəssisələrinə də aiddir”.

# Rusiya Trampa sui-qəsd hazırlayıb? - reaksiya



**Pekində keçirilən hərbi paradla bağlı paylaşım edən ABŞ Prezidenti Donald Tramp Çin, Rusiya və Şimali Koreya başçılarını ABŞ-yə qarşı sui-qəsd hazırlamaqda ittiham edib.**

“AzPolitika” xəbər verir ki, Trampın bu paylaşımına dərhal Putinin köməkçisi Yuri Uşakov cavab verib.

“Düşünürəm ki, (Donald Tramp) ironiya ilə deyib ki, guya "bu üçlük" Birləşmiş Ştatlara qarşı sui-qəsd hazırlayır. Mən vurğulamaq istəyirəm: heç kim heç bir sui-qəsd təşkil etməyib, heç kim heç nə hazırlamayıb", - Uşakov qeyd edib. Onun sözlərinə görə, Vladimir Putin, Si Cinpin və Kim Çen In ABŞ-yə qarşı sui-qəsd haqqında düşünmürlər və Trampın hazırkı beynəlxalq vəziyyətdəki rolunu yaxşı bilirlər.

# Kreml liderinin yeni “Ukrayna dövləti” planı

## Moskvaya sığınmış Yanukoviç bu halda prezident ola bilər

**10 ildən çoxdur Rusiyada sığınacaq verilmiş Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviç aktivləşməyə başlayıb. Onun iki gün öncə uzun fasilədən sonra yayımladığı videomüraciətinin Rusiya Prezidenti Vladimir Putinin təlimatıyla həyata keçirildiyi iddia edilir. Sabiq prezident dövlət başçısı olduğu illərdə Ukraynanın Avropa İttifaqına üzvlüyünü dəstəklədiyini, ancaq NATO-ya üzvlüyün fəlakətə aparacağını söylədiyini bəyan edib.**

Eyni sözləri Putin həmin gün Çində Slovakiya baş naziri Robert Fitso ilə görüşdə deyib. O deyib ki, Rusiya heç vaxt Ukraynanın Avropa İttifaqına üzvlüyünə qarşı çıxmayıb, NATO-ya gəlincə, bu başqa məsələdir, burada söhbət Rusiyanın təhlükəsizliyinin təmin olunmasından gedir.



Siyasi ekspertlərin fikrincə, Vladimir Putinin göstərişi və icazəsi olmadan Viktor Yanukoviçin Ukrayna ilə bağlı açıqlama verməsi, videomüraciət yayması qeyri-mümkündür. Yanukoviç danışmağa başlayıbsa, demək, Kreml düyməni basıb.

Kreml niyə Ukraynanın devrilmiş sabiq prezidentinin “xidmətinə” ehtiyac duyub? Rusiya Yanukoviçi Ukraynada, yaxud da işğal etdiyi Ukrayna ərazisini “Şərqi Ukrayna dövləti” elan edib orada hakimiyyətə gətirə bilərmi?

**Siyasi ekspert Əli Orucov “Yeni Müsavat”a bildirdi ki, Ukraynanın devrilmiş sabiq prezidenti Viktor Yanukoviçin hələ hakimiyyətdə olduğu zamanlardan Rusiyanın əlaltısı olduğu bütün dünyaya bəlli idi:** “Bunu Yanukoviçin özü də heç zaman gizlətməyib. Moskva Ukraynada Yanukoviçin hakimiyyətdən getməməsi üçün çox çalışmışdı. Lakin Viktor Yanukoviç xalqın və müxalifətin təzyiqləri qarşısında duruş gətirə bilməyərək hakimiyyətdən getdi və vətənini tərk edərək ağasının qucağına sığındı. Kreml öz adamını uzun müddətdir qoruyur və zamanı gələrsə yenidən siyasi səhnəyə çıxarmaq üçün saxlayırdı. İndi belə görünür ki, həmin zamanın yaxınlaşdığını düşünürlər və ona görə də Viktor Yanukoviçə hərəkətə keçmək komandası verilib. Bu baxımdan onun müraciət formasında çıxışı təsadüf deyil və bu, Kremlin planlarının tərkib hissəsi kimi qəbul edilməlidir. Rusiya lideri Vladimir Putinin Şanxay Əməkdaşlıq Təşkilatı toplantısı çərçivəsində verdiyi bəyanatlarda Ukraynadakı 2014-cü il Maydan hərəkatını xatırlatması və bunu dövlət çevrilişi adlandırması Volodimir Zelenskinin hakimiyyətinin qeyri-legitimliyini, Yanukoviçin isə qanunsuz olaraq hakimiyyətdən uzaqlaşdırıldığını isbatlamaq cəhdidir. Maraqlı detallardan biri ondan ibarətdir ki, Rusiyanın özünə ilhaq etdiyi Ukrayna vilayətlərindən "müstəqil dövlət" qurmaq ideyası da artıq Kremlə yaxın şəxslər, siyasi dairələrə tərəfindən səsləndirilməyə başlayıb. Ona görə də Rusiyanın ələ keçirdiyi Ukrayna ərazilərini “Şərqi Ukrayna”, “Dnestraynı Respublika” və ya başqa bir ad altında ayrıca “dövlət” elan edib tanıması, ardınca isə Viktor Yanukoviçi həmin “dövlətin” başına gətirməsi ehtimalı istisna deyil".

**Ekspertin sözlərinə görə, Kremldə yaxşı anlayırlar ki, Moskvanın adamı olan Yanukoviçi hətta Zelenski hakimiyyətdən getsə belə, Ukraynanın prezidenti etmək mümkünsüzdür:** “Xalqa bunu qəbul etdirmək asan deyil. Amma işğal etdikləri və nəzarətlərində saxladıqları ərazilərdə bunu etmək Moskvaya elə də çətin görünmür. Görünür, Kreml beynəlxalq aləmin təzyiq və qınaqlarından yayınmaq üçün həmin ərazidə qondarma rejim yaratmaq iddiasına düşüb. Digər tərəfdən, Yanukoviç siyasi karyerasının yüksəlişi dönəmində Ukraynanın şərq vilayətlərində rusdilli əhali arasında da müəyyən populyarlığa malik idi. Bununla belə, düşünmürəm ki, təcavüzdən sonra Kreml və onun görəvə gətirmək istədiyi, fəallaşdırdığı Yanukoviçə həmin münasibət qalmış olsun. Kreml Yanukoviçi ehtiyat variantı kimi saxlamışdı. Və sabiq uğursuz prezidentdən istifadə etmək qərarına gəlib. Onun özü də bəzi iddialı bəyanatlar verməyə başlayıb. Ən ağlabatanı Rusiya Ukraynada "Dnestraynı Respublika" yaratmaqla özünün işğalçı niyyətlərini pərdələməyə və onu danışıqlar prosesinə daxil etməyə çalışacaq. Rusiyanın qaynar separatizm ocaqları yaratmaq və idarə etmək təcrübəsi var".

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# “Rusiyanın hələlik Azərbaycanla münasibətləri normallaşdırmaq fikri yoxdur”


Elxan Şahinoğlu

**Musavat.com xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.**

“Kreml Rusiyanın müxtəlif şəhərlərində Azərbaycan diasporuna rəhbərlik edən şəxsləri bir neçə məqsədlə dəyişməyə başlayıb. Birincisi, yeni diaspor rəhbərləri ana vətənlərinə bağlı olmamalı, Kremlin təlimatları əsasında fəaliyyət göstərməlidirlər. Məsələn, hazırda Rusiya-Azərbaycan münasibətlərində gərginlik var. Kreml diaspor rəhbərlərindən bu gərginlik fonunda Rusiyanın mövqeyinin müdafiəsini tələb edəcək. Kremli Azərbaycan diasporlarının iki ölkə arasında əlaqələrin inkişafına töhfə verməsi, həmin ölkələrin qanunvericiliyinə uyğun fəaliyyət göstərməsi maraqlandırmır. Kremlin əsas məqsədi Rusiya hakimiyyətinə loyallıq və diaspor rəhbərlərinə verilən tapşırıqların yerinə yetirilməsini təmin etməkdir. Kreml bu tələbləri yerinə yetirməyəcək diaspor rəhbərlərini başqaları ilə əvəz edəcək”.

**Elxan Şahinoğlunun fikrincə, Kreml bu yolla soydaşlarımızı ana vətəndən qoparmağa və Rusiyada soydaşlarımız arasında Azərbaycanın siyasətinin tənqidçilərini artırmağa çalışacaq:** “Rusiya hakimiyyətinin ikinci məqsədi soydaşlarımızın ana vətəndəki ailələrinə pul köçürmələrinə nəzarəti gücləndirmək olacaq.

Kremlin hələlik Azərbaycanla münasibətləri normallaşdırmaq fikri yoxdur, əksinə, media ruporları vasitəsilə hədələyici açıqlamalarının sayını artırmaqla məşğuldur. Rusiyanın dövlət televiziya kanalının aparıcısı Solovyovun Azərbaycana qarşı artan təxribatçı açıqlamaları bunun sübutudur.

Kreml filosof və politoloq Aleksandr Duqini də hərəkətə gətirib. Onun sözlərinə görə, Rusiyada yaşayan miqrantlar, o cümlədən soydaşlarımız Rusiya cəmiyyəti üçün “ən çox toksik qruplar” hesab edilə bilər. Duqinin fikrincə, Rusiyada qalmaq üçün yeganə yol assimilyasiya və “ölkənin mədəni kod”unu qəbul etməkdir.

Nədir bu “mədəni kod”? Duqin Kremlin mirqantlardan loyallıq və Rusiyanın müdafiəsində iştirak tələbinə birinə də əlavə edib: “Pravoslavlığı qəbul edin”.

Görəsən, Duqinin tələbi Rusiyada yaşayan digər 20 milyon müsəlmana da aiddirmi? Rusiyanın heç bir rəsmisi Duqinin təxribatçı açıqlamasını tənqid etmirsə, bunun xalqlar arasında nifaqa səbəb olacağını söyləmirsə, deməli, elə Kremldə oturanlar da belə düşünürlər".


Mübariz Qurbanlı

# Deputat: “Azərbaycan bu yolun dəhliz olmasını istəyir”

**YAP İdarə Heyətinin üzvü, deputat Mübariz Qurbanlı "Teleqraf"ın suallarını cavablandırıb. Deputat deyib ki, ATƏT-in Minsk Qrupu Ermənistan-Azərbaycan, keçmiş Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in prinsipləri əsasında sülh yolu ilə danışıqlar vasitəsilə həlli üçün yaradılmış qurum idi:**

“Bu təşkilat ona görə yaradılmışdı ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü, başlanmış olan hərbi əməliyyatlar dayandırılsın. ATƏT-in Minsk Qrupunda üç həmsədr - ABŞ, Fransa və Rusiya təmsil olunurdu. Keçən müddət ərzində bu təşkilat keçmiş münaqişə vəziyyətinin aradan qaldırılması üçün fəaliyyət göstərməli, təkliflər verməli idi. Xüsusilə bu qurum təcavüzkarın müəyyənləşməsi, onun Ermənistan olmasını göstərərək, ona qarşı hansısa təzyiq rıçaqlarını işə salmalı idi. Azərbaycana qarşı işğal faktını aradan qaldırılması üçün Ermənistana qarşı sanksiyaların tətbiqi kimi təzyiq alətlərindən istifadə oluna bilərdi. Bunun fonunda ATƏT-in Minsk Qrupunun həmsədrləri ancaq regiona səfərlər etməklə məşğul olurdu. Təsadüfi deyil ki, jurnalistlər həmsədrlərin bu səfərlərini "turist səfərləri" adlandırırdı. Çünki onların məqsədi danışıqlar prosesini uzatmaq idi. Prezident İlham Əliyev də bir neçə dəfə ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyinə dair özünün iradlarını bildirib. Çünki danışıqlar bu qədər uzun sürməməli və kimin-kim olduğu, təzavüzkarın kimliyi bəyan olunmalıydı".

**M.Qurbanlı Zəngəzur mövzusuna da toxunub:** “Prezident İlham Əliyev Çinə səfərində bir daha Zəngəzur dəhlizi məsələsinə toxundu. Burada müxtəlif ticarət yolları üzərindəki məsələlər, onların əhəmiyyəti, bütövlükdə Orta dəhliz istiqamətində Zəngəzurdan keçən yolun vacibliyi bir daha qeyd edildi. Ölkəmizin başçısı Zəngəzur dəhlizi terminini bir daha mühüm platformada diqqətə çatdırdı. Azərbaycan tərəfi bu yolun dəhliz formasında açılmasının tərəfdarıdır. Zəngəzurdan keçən yolun "Tramp marşrutu" formasında təsbit edilməsi imzalanmış sənədlər əsasında yerinə yetiriləcək. Şimal-Cənub, Şərq-Qərb dəhlizlərində Azərbaycan bağlayıcı ölkə kimi vacib rol oynayır. Ölkəmizin bu məsələdə coğrafi əhəmiyyəti böyükdür. Dövlətimizin başçısı da çıxışında qeyd etdi ki, atılan bu addımlar Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərində iştirak edəcək dövlətlərin maraqlarına uyğundur. Zəngəzur dəhlizi fəaliyyətə başladıqdan sonra Orta dəhliz Şərq-Qərb nəqliyyat dəhlizində əhəmiyyətli yer tutacaq. Şimal-Cənub nəqliyyat dəhlizi məsələsində bu dəhliz mühüm rol oynayacaq. Ona görə də ayrı-ayrı ölkələrin və qrupların bu məsələ ilə bağlı münasibətləri, mövqeləri və açıqlamaları olsa da, Zəngəzur dəhlizi hamı üçün faydalı olacaq. Bu dünya ticarətinə, iqtisadi əlaqələrə mühüm töhfə verəcək. Azərbaycan da burada əhəmiyyətli ölkə olaraq Zəngəzur dəhlizinin reallaşmasında söz sahibi kimi fəaliyyətini davam etdirəcək".

YENİ MÜSAVAT
N 157 (8767) 4 sentyabr 2025

# Ermənilərin Qarabağdan köçü dərslikdə - qalmaqal

## Şahramanyan həyasızcasına nazirliyi məhkəməyə verir - mütəxəssislərdən şillə kimi cavablar



**Keçmiş qondarma “DQR” rəhbəri Samvel Şahramanyan yenidən gündəmə gəlib. O, ötən ilin sentyabrında imzaladığı “fərman”ı indi açıq şəkildə inkar edir və həmin faktın Ermənistanın IX sinif “Ermənistan tarixi” dərsliyinə salınmasına görə məhkəmə iddiası qaldıracağını bəyan edib.**

Şahramanyanın vəkili Roman Yeritsyanın sözlərinə görə, dərsliyin müəllifləri, eləcə də Ermənistanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi və məsul qurumlar məhkəmədə cavab verməli olacaqlar. Vəkil bildirib ki, kitabda “böhtan xarakterli” məlumatlar yer alıb və onların təkzib edilməsi tələb olunacaq.

Halbuki reallıq tamamilə fərqlidir. 2023-cü ilin sentyabrında məhz Şahramanyanın imzaladığı sənəd separatçı qurumun özünü buraxdığını rəsmiləşdirmiş və Qarabağdakı erməni əhalinin könüllü şəkildə bölgəni tərk etməsinə yol açmışdı. Bu addım bütün dünyada fakt kimi qəbul edilib. İndi həmin sənədi inkar etməsi, üstəlik, dərslik müəlliflərini məhkəməyə vermək istəyi həm ictimaiyyət, həm də ekspertlər tərəfindən gülünc sayılır.

Maraqlıdır ki, dərslikdəki məlumatların Paşinyanın mövqeyinə uyğunlaşdırıldığı da diqqətdən yayınmır. Ermənistan baş naziri indiyədək heç vaxt “Qarabağdan ermənilərin qovulması” ifadəsini işlətməyib, əksinə, köçü könüllü qərar kimi təqdim edib. Görünür, dərslik müəllifləri də məhz rəsmi hökumət xəttini izləyiblər.

Bu qalmaqal bir sualı gündəmə gətirir: separatçılar nə istəyirlər? Onlar hələ də tarixdə özlərinə “məsum obrazı” qazandırmaq və gələcək nəsillərə “məcburi köçkün” kimi təqdim olunmaq üçün mübarizə aparırlar. Əslində isə hadisələrin gedişi göstərir ki, Qarabağdan ermənilərin köçü nə hərbi əməliyyatların nəticəsi, nə də “etnik təmizləmə”nin məhsulu olub - bu, siyasi dalana dirənmiş separatçı rejimin özünün imzası ilə rəsmiləşdirilmiş könüllü çıxış idi.

Belə olan halda, dərsliklərdə həqiqətin necə yazılması Azərbaycan üçün heç bir əhəmiyyət daşımır. Amma bu qalmaqal Ermənistan cəmiyyətində hələ də böyük çaşqınlığın hökm sürdüyünü, keçmişin saxta miflərinin isə gələcək nəsillərə ötürülməsi uğrunda gizli mübarizənin davam etdiyini açıq şəkildə göstərir.

**Mövzu ilə bağlı Erməni Araşdırmaları Mərkəzinin rəhbəri, ermənişünas alim Qafar Çaxmaqlı “Yeni Müsavat”a danışıb. Onun sözlərinə görə, Şahramanyan bu fikirləri ötən gün səsləndirib:** “Ermənistanda Azadlıq meydanında böyük bir mitinq təşkil olunmuşdu və oraya Paşinyan hakimiyyətinə müxalif olanlar, Qarabağdan könüllü gedən ermənilərin nümayəndələri toplaşmışdı. Şahramanyan mitinqdən sonra keçirilən birifinqdə bildirdi ki, guya 2023-cü ilin sentyabrında sənədi məcbur qalıb imzalayıb. Bu məcburiyyəti isə onunla əsaslandırdı ki, Qarabağdakı erməni hərbçilərin və digərlərinin həyatını guya xilas etmək istəyirmiş. Buna görə də qondarma rejimin buraxıldığını elan edən sənədə imza atıb. O, ardınca əlavə edir ki, həmin sənədi imzaladıqdan bir həftə sonra Ermənistanda rejimin bərpa edilməsi ilə bağlı yeni sərəncam imzalayıb, lakin o qüvvədən düşmüş hesab olunub. Paşinyan hakimiyyəti bu sərəncamı dəstəkləməyib və əvvəlki qərar qüvvədə qalıb.

Bu mitinqdən sonra Ermənistanda Qarabağ mövzusunu yenidən gündəmə gətirib qızışdırıcı hərəkətlər etməyə çalışırlar. Hətta İsveçrədə də Qarabağ ermənilərinin geri qayıtması ilə bağlı sənədin qəbul olunması gözlənilir. Mənə elə gəlir ki, Qarabağ məsələsini bu cür meyillərlə ortaya qoyacaqlar və separatçılığa başlayacaqlar. Qarabağa ermənilərin geri dönüşü ilə bağlı Ermənistan hakimiyyəti özünü kənarda saxlasa da, alt qatlarda belə təşəbbüslərə dəstək verilir. Bu hərəkat açıq separatizmdir və gizli deyil. Ərazilərimizə qarşı yeni bir iddia dalğası hazırlanır, buna hazır olmalıyıq".

**Q.Çaxmaqlı bildirir ki, Azərbaycan bütün platformalarda bu məsələni önə çəkməli, Ermənistanı öhdəliklərini yerinə yetirməyə məcbur etməlidir:** “Bu məsələnin üzərinə ciddi şəkildə getmək lazımdır. Gələcəkdə ağlagəlməz təhlükəyə çevrilə bilər. Ermənilərin Qarabağda həmişə gözü olub və bundan vaz keçmək istəmirlər. Buna görə də zamanla separatizm təhlükəsi yarana bilər. Şahramanyan adi bir fiqurdur.Onun arxasında Qarabağ klanı - Səkisyan, Köçəryan kimilər, hətta terroru istisna etməyən bəzi qüvvələr dayanıb. Onların arasında ASALA terrorçuları və digərləri də var”.

**Bakı Dövlət Universitetinin (BDU) Tarix fakültəsinin dosenti Boran Əziz də mövzu ilə bağlı şərh verib:** “Azərbaycan hərbi cəhətdən güclü olmalıdır. Ermənistanla müqavilə imzalansa belə, heç kim zəmanət verə bilməz ki, Ermənistanda separatizm baş qaldırmayacaq. Ermənistan xarici və böyük dövlətlərin təhriki ilə bizə qarşı yenidən ərazi iddiası qaldıra bilər. Doğrudur, Nikol Paşinyan sülhə sadiq olduğunu deyir, lakin ehtiyatı əldən vermək olmaz. Dünyanın çalxalandığı və Yalta konfransından sonra formalaşmış qanunların nəzərə alınmadığı, təhlükəsizlik arxitekturasının çökdüyü bir dövrdə bizim tədbirli olmağımız olduqca zəruridir. İranın və Rusiyanın irticaçı dairələri Qarabağ klanını qızışdırıb xoşagəlməz vəziyyət yarada bilərlər. Bu baxımdan biz daima ayıq olub, olara cavab verməliyik”.

Qeyd edək ki, Serj Sərkisyanın Respublikaçılar Partiyasının açıqlama verərək, bu ilin avqust ayında imzalanan Vaşinqton deklarasiyasını geosiyasi avantüra adlandırması, Ermənistanın maraqlarını qorumadığını bildirməsi, sənədin ölkənin suverenliyini təhdid etməsi, Qarabağ ermənilərinin hüquqlarının pozulması kimi şərh edilməsi də revanşizmin təzahürləridir. Bu siyasi qüvvə sülhün imzalanmasında maraqlı deyil və ölkənin inkişafını, Azərbaycanla münasibətlərin normallaşmasını qəti şəkildə istəmir.

❑ Şahanə RƏHİMLİ, “Yeni Müsavat”



Elmar Məmmədyarov

## Sabiq nazir: “Üçtərəfli razılaşma bu vaxt qüvvədən düşəcək”

**Azərbaycanın sabiq xarici işlər naziri Elmar Məmmədyarov "Teleqraf"ın suallarını cavablandırıb.**

Onunla müsahibəni təqdim edirik:

**- Elmar müəllim, Zəngəzur dəhlizinin (Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu -TRIPP) açılması ilə bağlı avqustun 8-də Vaşinqtonda əldə edilən razılaşmaya qarşı region dövlətlərinin reaksiyası hər ötən gün daha da artır. Bu narazılıq nə ilə nəticələnə bilər?**

- Azərbaycan bu dəhlizin açılması ilə bağlı tərəflərlə davamlı təmasda olmalıdır. Çünki bu yolun başlanğıcı Azərbaycan ərazisindədir və Naxçıvana qədər uzanır. Naxçıvan da Azərbaycan ərazisi olduğu üçün Zəngəzur dəhlizi və yaxud “Tramp marşrutu” ilə bağlı razılaşma əldə etmiş hər iki tərəflə, yəni ABŞ və Ermənistanla təmasların olması mütləqdir. Yolun çəkilişləri məsələsində Azərbaycan hökuməti ilə razılıq əsasında bu işləri icra etmək mümkün olacaq. Bunun başqa bir yolu da yoxdur.

**- Rəsmi İrəvan 10 noyabr 2020-ci ildə imzalanmış (Azərbaycan, Rusiya və Ermənistan) üçtərəfli razılaşmanın qüvvədən düşdüyünü bəyan edib. Kremlin buna reaksiyası necə olacaq?**

- Bunu indi söyləmək bir az çətindir. Faktiki olaraq, bu gün Azərbaycanla Ermənistan arasında sülh sazişinin ilkin mətni paraflanıb. Bu, ilk addım idi. Bundan sonra yekun sülh sazişinin imzalanması və onun hər iki ölkənin parlamenti tərəfindən ratifikasiya etməsindən sonra üçtərəfli razılaşmanın tarixdə qaldığını demək olar. Reallıqda bu razılaşma indi əhəmiyyətini itirsə də, de-yure o mövcuddur. Yekun razılaşmadan sonra bu mümkün olacaq.

**- Sentyabrın 1-də ATƏT-in Minsk Qrupunun buraxılması ilə bağlı qərar qəbul edildi. Bakının sülhlə bağlı iki mühüm şərtindən biri həll edildi. Digər məsələlərin də qısa zamanda həlli mümkün olacaqmı?**

- Avqustun 8-də ABŞ-da bu məsələ ilə bağlı razılaşma əldə edildikdən sonra ATƏT-in üç həmsədrindən (ABŞ, Fransa, Rusiya) biri olaraq Fransa buna ilk reaksiya verən tərəf oldu. Rəsmi Paris bunun mümkünlüyünü bəyan etdi. Daha sonra isə Rusiya da bununla bağlı mövqeyini ortaya qoydu və beləliklə, Minsk Qrupu artıq tarixə qovuşdu. Söz-süz ki, bundan sonra digər məsələlərin də həllinə ümidlər daha da güclənir.



## Simonyan: “Biz ləyaqətimizi itirdik”

**“Biz Qarabağı itirməklə təhlükəsizliyimizi, ləyaqətimizi itirmişik”.**

Tribunainfo.az xəbər verir ki, bu fikirlərin müəllifi erməni hüquq müdafiəçisi Nare Simonyandır.

O bildirib ki, Qarabağı itirməklə Zəngəzurdan, Tavuşdan tutmuş İrəvana qədər bütün ölkə təhlükə qarşısında qalıb.

YENİ MÜSAVAT
N 157 (8767) 4 sentyabr 2025



# Nəriman totemi

Zamin HACI
zaminhaci@gmail.com

**Mən siyasətə qarışmıram, ancaq hərdən bu istiqamətdə maraqlı mövzular olur. Məsələn, təzəlikcə dövlət rəhbəri xarici telekanala intervüsündə 1920-ci ildə Rusiyanın müstəqil Azərbaycan dövlətini işğal etdiyini deyib və sən demə, bu, Moskvada böyük narazılıq doğurubdur. Rus siyasətçilər, politoloqlar, "zurnalistlər" hərəsi bir tərəfdən Azərbaycana qarşı yalan, böhtan, hədə püləməyə girişmişdir. Guya bütün dünyaya məlum olan tarixi faktı - Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal edilməyini söyləmək olmazmış.**

Ancaq insafla yanaşanda rusların təəccübünü də haradasa anlamaq olar. Onlar oradan baxırlar, görürlər Azərbaycanda manqurtlar xeyli say təşkil edir. Rus imperiyasının, SSRİ-nin həsrətini çəkənlər, ana dilinə nifrət edib ev-eşikdə, ailədə rusca danışanlar, kəndlərimizi, şəhərlərimizi boş qoyub Sibirə axışanlar...

Sanki bizdə işsizlik var. Rəsmi statistikaya görə, bizdəki işsizlik səviyyəsi şimal qonşumuzdan da yaxşıdır. Bəs niyə vətəni atıb qaçırlar? Haçana qədər Xoşqədəm xanım oradan sevgili vətənimiz üçün ər, oğul, uşaq toplamaq kimi əziyyətə qatlaşacaqdır?

Başqa tərəfdən, 1920-ci il bolşevik işğalının əsas simvollarından, totemlərindən biri Nəriman Nərimanovdur. 28 aprel 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut eləyəndə, Azərbaycan Sovet Sosialist Respublikası elan olunanda Azərbaycan SSR Müvəqqəti İnqilabı Komitəsinin Sədri və Xalq Komissarları Sovetinin Sədri vəzifələrini (indiki terminologiya ilə yazsaq, prezident) kim tutmuşdu? Məhəmməd Əmin Rəsulzadə. Əşşi, zarafat edirəm, təbii ki, Nəriman yoldaş. İndiki uşaqlar bilməz, sovet vaxtı Azərbaycanda hər tərəfdə Nəriman yoldaşın bu afyorizminə rast gəlmək mümkün idi: "Azərbaycanın əbədi xoşbəxtliyi Rusiya ilə bağlıdır".

Nəticədə biz guya 1991-ci ilin bu vaxtları müstəqillik, suverenlik-filan kimi işlərə başlamışıq, lakin Leninin heykəli uçurulub, Nərimanov isə səmada qanad çalır.

Nəriman müəllimin adına rayon, metro, küçə və sairə vardır. Di gəl, cümhuriyyət qurucularından bir yetimin də Bakıda heykəli yoxdur. Rusiya bunu görəndən sonra bizim haqqımızda nə fikirləşməlidir? İşğal mövzusu onlara qəribə gəlməli deyilmi?

O necə işğaldır ki, işğalın simvolu yaşadılır, qurbanı isə yox? Psixologiya elmində bu vəziyyətə, səhv etmirəmsə, "koqnitiv dissonans yaşamaq" deyirlər, biz öz ana dilimizdə yazaq: o nə pəhriz, bu nə alça turşusu?

Yeri gəlmişkən, Rusiyadan bənzər nifrət və hədə-qorxulara Qırğız Respublikası da tuş gəlib. Onlar gec də olsa Leninin heykəllərini sökür, sovetdən qalma toponimləri dəyişdirmək istəyirlər. Məsələn, təsəvvür edin, Bişkekin 4 rayonu Lenin, Sverdlov, 1 may və Oktyabr adlanır. Oktyabr bolşevik inqilabının ayıdır, 1 mayı bilirsiniz. Yakov Sverdlov isə qaniçən bolşeviklərdən biri olub, ispan qripi 1919-cu ildə canını almasa bəlkə Stalin qədər qəddar kadr yetişirdi. Örnək üçün, rus çar ailəsini arvad-uşaqlı güllələmək qərarını Yakov müəllim şəxsən vermişdi. Ancaq hazırkı vəziyyətin idiotluğunu göstərən bu deyil.

Tragikomik olan budur ki, SSRİ vaxtı Rusiyada Sverdlovsk şəhəri var idi və ruslar kommunist rejimi dəyişəndən sonra onun tarixi adını qaytardılar. Bu, soydaşlarımıza qarşı son qanlı terror hadisələrindən yaxşı tanıdığımız Yekaterinburq şəhəridir. Və Rusiya indi Bişkekdə qırğızların Sverdlovu xatırladan rayonun adını dəyişmək istəyini "ruslara qarşı nifrət siyasəti" adlandırır... Biz özümüz silmişik, ancaq sizdə qalmalıdır! Bilmirsən bu heyvərəliyə nə ad qoyasan...

Çin liderinin son paradda dediyi "Bəşəriyyət müharibə və sülh arasında seçim astanasındadır" sözləri isə mənə, nə gizlədim, saqqallı bir anekdotu xatırlatdı. Deyir bir etnik azlığın nümayəndəsi 1945-ci ildə gedir Stalinin qəbuluna və narazılıq edir: "Müharibə aparmısan, bizə xəbər verməmisən". Rəhmətliyin oğlu, 4 ildir dostun Putin Ukraynada qanı su yerinə axıdır (həm də sən göndərən silahlarla), ta müharibə necə olur? Astanası nədir, lap evin baş köşəsində qırğındır.

Gözlərini yumurlar, guya gizlənirlər.



# Kreml Bakı-İrəvan barışığına qarşı

## Azərbaycanla Ermənistan arasında "saat əqrəbləri" bu dəfə Çində tutuşduruldu və Rusiyaya "sarı kart" göstərildi

**Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan Ağ Evdə imzalanmış tarixi sənədlərin üstündən bir ay, Abu-Dabu görüşündən isə iki ay keçməmiş bu dəfə Çində bir araya gəldilər. "Saat əqrəbləri" indi də bu dövlətdə tutuşduruldu.**

Rusiya isə növbəti dəfə "ofsaytda" saxlanıldı. Halbuki 44 günlük Vətən savaşından sonra Əliyev, Paşinyan və Putin il ərzində dəfələrlə üçlü formatda görüşmüş, birgə bəyanatlar (Moskva, Soçi) qəbul etmişdilər.

Şübhə yox ki, Əliyevlə Paşinyanın, Ərdoğanla Paşinyanın Çin danışıqları sülh prosesinə əlavə stimul verəcək. Bu kimi təmaslar, eləcə də Azərbaycan və Ermənistanın 1-ci xanımlarının ilk dəfə görüşərək birgə şəkil çəkdirməsi iki xalq arasında nə qədər çətin də olsa, etimad mühitinin yaranmasına və düşmənçilik səhifəsinin daha tez qapanmasına, barışığın əldə olunmasına yardımçı ola bilər.

Artıq böyük sülhə doğru yolda iki ən ciddi əngəldən biri aradan qalxıb. ATƏT-in Minsk Qrupu rəsmən ləğv olunub. Qalır Ermənistan Konstitusiyasına müvafiq düzəlişi edib paraflanmış sülh müqaviləsini imzalamaq, tərəflər arasında, o cümlədən Ankara və İrəvan arasında diplomatik münasibətlər qurmaq.

Təbii ki, bundan sonra bütün anti-Türk çevrələr və müharibə tərəfdarları, özəlliklə erməni lobbisi və erməni kilsəsi, habelə Ermənistanda Rusiyaya bağlı qüvvələr və rəsmi Kreml bütün güclərini məhz konstitusiya dəyişikliyinə qarşı səfərbər edəcəklər. Çünki bu, onların aranı qarışdırmaq üçün sonuncu rıçağıdır.

Bəs Moskvanın öz günahı üzündən prosesdən kənarda qalması, obrazlı desək, Çində Bakıdan "sarı kart" alması böyük sülhə hansı əngəli yarada bilər? Rusiyanın Ermənistan əhalisini Paşinyana qarşı qaldırmaq potensialı nə dərəcədə ciddidir?

**Siyasi ekspert Züriyə Qarayevanın** sözlərinə görə, Rusiyanın müdaxilə imkanları tükənir. Onun fikrincə, sonuncu istinad nöqtəsi üçtərəfli sazişdir, Bakı və İrəvan onu qüvvədən düşdüyünü birgə bəyanatla elan edə bilər. Z.Qarayeva hesab edir ki, Çində üçtərəfli görüşün olmayacağı da gözlənilən idi: "İlk növbədə Azərbaycan-Rusiya münasibətləri pisləşib. İkincisi, belə bir formatda görüşə ehtiyac yox idi, çünki tərəflər sülh mətnini paraflayıblar. Yəni Rusiyanın iştirakı ilə müzakirə ediləcək mövzular yalnız əməkdaşlıq sahələri ola bilərdi. Əgər Moskva Bakı ilə İrəvan arasında hər hansı mövzuda vasitəçilik etməyə həvəslənibsə, buna zərurət qalmayıb. Bu mənada Rusiyanın sonuncu bəhanəsini də əlindən almaq lazımdır. Söhbət 10 noyabr sənədindən gedir. Bu günlərdə Paşinyanın sözlərinə Zaxarova cavab verdi ki, üçtərəfli saziş qüvvədə qalır. İndi buna cavab olaraq hər iki tərəf bəyannamədən çıxdığını bildirməlidirlər. Mənim gözləntim budur ki, belə bir qərar olacaq. Ondan sonra Rusiyanın regiondakı məsələlərə qarışmağa imkanı olmayacaq".

**Z.Qarayeva hesab edir ki, Cənubi Qafqaz yeni dövrə daxil olur və böyük dəyişikliklər olacaq:** "Artıq nəqliyyat kommunikasiyalarının açılması qaçılmazdır. Çinin də bu layihələrə böyük marağı var. Belə olan halda, Rusiya köhnə narrativlərlə siyasət yürüdə bilməz. Bölgədə onun qalması üçün yeganə yolu Azərbaycan və Ermənistanla əməkdaşlıqdır. Əgər imperiya zehniyyəti ilə yaşamağa davam etsə, bu ölkələri özündən kiçik görsə, Rusiya təzyiq yolları ilə heç nə edə bilməyəcək".

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev Rusiyanın Ermənistanda inqilab potensialı olmadığını düşünür. Onun fikrincə, yalnız hərbi çevrilişə əl ata bilər ki, bu da real görünmür:** "Ona görə əhalini Paşinyanın üstünə qaldırmaq çətindir. Rusiyanın müxtəlif ssenariləri ola bilər, sadəcə, Ermənistan hakimiyyəti ilə münasibətlər indi əvvəlki qədər gərgin deyil. Hətta Paşinyan Rusiyanı "qardaş ölkə" adlandırdı. Burada Azərbaycan-Rusiya əlaqələrinin korlanmasından sui-istifadə elementi də var. Ancaq bütün hallarda, Bakı və İrəvan əsas məsələləri həll ediblər. Yekun sülh müqaviləsi üçün konstitusiya dəyişikliyi olmalıdır. Məncə, Ermənistan buna da gedəcək. Yəni işi yarımçıq qoymaq olmaz. Bundan sonra Rusiyanın regiona araqarışdıranlıq etməsi üçün bütün alətlər əlindən çıxacaq. Hazırda Moskva proseslərə müdaxilə edə bilmir. Çünki Ukrayna müharibəsi onu strateji cəhətdən xeyli dərəcədə zəiflədib. Bu da ciddi şəkildə təsirlərini göstərməkdədir. Artıq Cənubi Qafqazda Rusiya mövqeyini itirib. Duqin də etiraf edti ki, bölgədən çıxarılıblar. Ona görə də Çində Azərbaycan və Ermənistan liderləri öz təşəbbüsü ilə görüşdülər, vasitəçiyə ehtiyac qalmadı. Putinin iştirakı ilə üçtərəfli görüşə ehtiyac da yox idi".

Xatırladaq ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistanın baş naziri Nikol Paşinyanın 10 noyabr üçtərəfli bəyanat barədə dediklərinə münasibət bildirib. Zaxarova keçirdiyi brifinqdə Paşinyanın bəyanatını "nitq fiquru" adlandırıb. Zaxarova qeyd edib ki, 2020-2022-ci illərin üçtərəfli razılaşmaları aktual olaraq qalır, tərəflərdən heç biri onlardan çıxmayıb, bu barədə sənədlər də mövcud deyil. Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan, Rusiya və Azərbaycan liderlərinin 9 noyabr 2020-ci il üçtərəfli bəyanatının qüvvədən düşdüyünü bildirib. Ermənistan lideri deyib ki, "noyabrın 9-na qayıtmağa ehtiyac yoxdur". "9 noyabr 9 noyabrda qaldı", - Paşinyan əlavə edib.

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"




Mariya Zaxarova

## SSRİ ilə bağlı açıqlama Moskvanı qəzəbləndirdi

**"Finlandiya Prezidenti Aleksandr Stubbın 1944-cü ildə SSRİ üzərindəki qələbə ilə bağlı bəyanatları qaranlıqdır".**

Musavat.com xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova deyib.

"Finlandiya Prezidenti Stubbın bəyanatlarına baxın. Finlərin hələ də ona necə dözdüyünü anlamıram. 1944-cü ildə Rusiya ilə, Sovet İttifaqı ilə razılaşdılar, indi də o iddia edir ki, Finlandiya 1944-cü ildə Sovet İttifaqı üzərində qələbə qazanıb. Bu, bir növ cahillikdir, bu, iki dəfə ikinin qırx səkkiz olduğunu deməklə eynidir, başa düşürsünüz?", - diplomat bildirib.

Qeyd edək ki, bundan əvvəl 1944-cü ildə SSRİ ilə imzalanmış müqaviləni şərh edən Stubb Finlandiyanın həmin il SSRİ ilə müharibədə müstəqilliyini qoruyaraq onun üzərində qalib gəldiyini açıqlamışdı.

# Prezident və birinci xanım Asiya nəhənginin paradında

## Çində keçirilən hərbi paraddan əvvəl Azərbaycan və Rusiya liderləri salamlaşıb; vitse-spiker: "Möhtəşəm paradda iştirakdan millətimiz yalnız qürur duya bilər"

**Sentyabrın 3-də Çinin paytaxtı Pekində yapon işğalına qarşı Çin xalq müqavimətinin və İkinci Dünya müharibəsində qazanılmış qələbənin 80-ci ildönümünə həsr olunmuş parad keçirilib. Çin Xalq Respublikası Mərkəzi Hərbi Şurasının sədri Si Cinpin qoşunların baxışını tamamladıqdan sonra parad bölmələri Pekinin Tiananmen meydanında hərəkətə başlayıb. Çinin paytaxtı Pekindəki Tiananmen meydanında keçirilən paradı 24 ölkənin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva izləyib.**

Paradda 10 mindən çox insan iştirak edib, yüzlərlə təyyarə və digər hərbi texnika nümayiş olunub. Tamaşaçılar burada Çin istehsalı olan qabaqcıl raket texnologiyaları, tanklar, təyyarələr və pilotsuz sistemləri görə biliblər. Xüsusilə PLA Hərbi Hava Qüvvələri yeni nəsil təyyarələrin bir neçə növünü nümayiş etdirib, onlardan bəziləri ilk dəfə geniş ictimaiyyətə təqdim olunub. Çin ordusu Pekində keçirilən paradda məhvetmə radiusu bütün planeti əhatə edən "DF-5C" strateji qitələrarası nüvə raketini təqdim edib. Parad zamanı uzunmənzilli aviasiya raketi "JL-1", sualtı bazalı qitələrarası raket "JL-3", eləcə də quru bazalı qitələrarası raketlər "DF-31" və "DF-61" təqdim olunub.






Sentyabrın 3-də Pekində Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanım Pen Liyuanın adından yapon işğalına qarşı Çin xalq müqaviməti və İkinci Dünya müharibəsində qazanılmış qələbənin 80-ci ildönümünə həsr olunmuş paradda iştirak edən nümayəndə heyətləri başçılarının və xanımlarının şərəfinə ziyafət verilib və konsert proqramı təqdim olunub.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Birinci Dünya müharibəsində qələbənin 80 illiyinə həsr olunmuş hərbi paradda iştirak etmək üçün Pekində olan Azərbaycan Prezidenti İlham Əliyev parad öncəsi iştirakçı dövlət başçıları ilə qeyri-rəsmi söhbətlər aparıb. Musavat.com xəbər verir ki, Azərbaycan Prezidenti dövlət başçısı həmkarları ilə ünsiyyətdə olarkən binaya Rusiya Prezidenti Vladimir Putin daxil olub. Onlar salamlaşdıqdan sonra digər dövlət başçıları ilə ünsiyyətə davam ediblər.

Qeyd edək ki, paraddan əvvəl Çində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının sammitində iştirak edən dövlət başçılarının görüşməməsi Rusiya və Azərbaycan mediasının diqqətini cəlb edib.

**Milli Məclis sədrinin müavini Musa Qasımlı** bildirib ki, İkinci Dünya müharibəsində Avropada faşist Almaniyası və Uzaq Şərqdə militarist Yaponiyası üzərində qələbənin qazanılmasında Azərbaycan xalqı müstəsna rol oynayıb: "1945-ci il sentyabrın 2-də ABŞ-nin Sakit okeandakı "Missuri" xətt gəmisində Yaponiyanın təslim olması haqqında aktın imzalanması ilə İkinci Dünya müharibəsi başa çatıb. Müharibənin sona çatmasının 80 illiyi münasibətilə Pekində keçirilən hərbi paradda cənab Prezidentimiz İlham Əliyevin iştirakı tarixi əhəmiyyət daşımaqla, həm tarixi keçmişə, həm İkinci Dünya müharibəsi illərində həlak olmuş azərbaycanlıların ruhuna ehtiramdır, həm də müasir şəraitdə neofaşizmə, neonasizmə və revanşizmə qarşı mübarizədə bərabər olmağın vacibliyini göstərir. Dünya müharibəsində azərbaycanlıların iştirakı və qəhrəmanlığı bir neçə sahədə olub: sovet ordusu sıralarında ön cəbhədə vuruşublar; arxa cəbhədə əmək şücaəti göstərərək cəbhəni isti paltar və ərzaqla təmin ediblər; müharibə motorlar müharibəsi olduğundan Azərbaycan neftlə cəbhəni təchiz edib; işğal altındakı ölkələrdə partizan hərəkatında iştirak ediblər; antifaşist müqavimət hərəkatında igidliklər göstəriblər; SSRİ-nin xarici aləmə çıxışı Azərbaycandan keçərək olub, Azərbaycan nəfəslik rolunu oynayıb; beynəlxalq hava xəttində yalnız Bakı-Tehran hava xətti işləyib; Amerika Birləşmiş Ştatlarının tətbiq etdiyi lend-liz sistemi ilə alınan silahlar Azərbaycan ərazisindən keçərək cəbhəyə aparılıb; legioner dəstələrində Hitler Almaniyasına qarşı təxribatçılıq fəaliyyətləri aparılıb, aerodromların tikintisi, texnikanın təmiri yubadılıb və s.; kəlmeyi-şəhadəti öyrədərək yəhudiləri ölümdən xilas ediblər və s."

Musa Qasımlı qeyd edib ki, dünya nəhəngi Çinin paytaxtı Pekində keçirilən möhtəşəm paradda dövlətimizin iştirakı ilə millətimiz yalnız qürur duya bilər.

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# Hindistandan Azərbaycana "pas"- Bakı üçün fürsət?



## Nyu-Dehlinin Qərbə yaxınlaşmağımız üçün ŞƏT üzvlüyünə gedən yolumuzu blokladığı iddia olunur - şərh

**"Hindistan Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) daxil olmasına Bakının Pakistanla yaxın münasibəti səbəbilə əngəl olub". Bunu Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr komitəsinin sədrinin birinci müavini, qatı ermənipərəst və Azərbaycan düşməni Konstantin Zatulin bildirib.**

"Bu qərar Azərbaycanın sıx əməkdaşlıq etdiyi Pakistanla Hindistan arasında yaranmış gərginliyin, Bakının İslamabadla hərbi-texniki əməkdaşlığı inkişaf etdirməsinin nəticəsidir. Əvvəldən Bakının ŞƏT-ə üzv olmaq üçün müraciəti keçilməz sayılırdı. Rusiya və Çin təşkilatın üzvlüyünün genişləndirilməsinin tərəfdarıdır, lakin Hindistanın mövqeyi sammitdən əvvəl məlum idi", - Zatulin deyib. Onun iddiasına görə, Bakı bilirdi ki, Nyu-Dehli Azərbaycanın ŞƏT-ə daxil olmasına əngəl yaradacaq. Amma indi Bakı Qərbə qoşulmaq istəyini təşkilata üzv olmağın mümkünsüzlüyü ilə izah edəcək.

Zatulinin sözlərindən belə çıxır ki, Hindistan Azərbaycanın Qərbə, ABŞ ilə daha da yaxınlaşması üçün əslində ona qiymətli bir "pas" verib. Belədirmi?

**Politoloq Oqtay Qasımov "Yeni Müsavat"a bildirdi ki, Zatulinin Azərbaycana qarşı düşmən mövqedə olduğu hər kəsə bəllidir**: "Onun bütün siyasi karyerasında, açıqlamalarında bu xətt daim özünü göstərir. Bu şəxsin fikirləri heç zaman obyektiv olmayıb. O ki qaldı onun Şanxay Əməkdaşlıq Təşkilatına üzvlüklə bağlı Azərbaycanın müraciətinin Hindistan tərəfindən bloklanmasından Azərbaycanın Qərbə üz tutması üçün sui-istifadə edəcəyi iddiasına, bu da Zatulinin boş-boş cəfəngiyyatı və fantaziyasıdır. Azərbaycan həm Qərblə, həm də Şərqlə kifayət qədər balanslı, milli maraqlarımıza cavab verən münasibətlər qurub. Azərbaycan həm Çinlə strateji tərəfdaşdır, o cümlədən şərti olaraq Şərq blokunda olan dövlətlərin əksəriyyəti ilə Azərbaycanın çox yaxşı münasibətləri var, ŞƏT üzvü olan dövlətlər arasında hazırda Azərbaycanın yalnız Hindistanla və Rusiya ilə münasibətləri soyuqdur. Amma Azərbaycanın Zatulinin iddia etdiyi kimi, hansısa bir bəhanəyə, pas ötürülməsinə ehtiyacı yoxdur".

Politoloq vurğuladı ki, Azərbaycan həm Avropa İttifaqı ilə strateji tərəfdaşlıq münasibətlərinə malikdir, yəni enerji sahəsində Avropanın etibarlı enerji təminatçılarından biridir, həm də ABŞ ilə keçən ayın 8-də Vaşinqtonda imzalanmış razılaşmaya görə strateji tərəfdaşlıqla bağlı işçi qrup yaradılıb və strateji tərəfdaşlıq münasibətlərinin rəsmiləşdirilməsi üçün sənədlər hazırlanır: "Şanxay Əməkdaşlıq Təşkilatının hazırda 10 üzvünün əksəriyyəti ilə Azərbaycanın strateji münasibətlər sistemi var. Hazırda bu ölkələrdən yalnız ikisi ilə - Hindistan və Rusiya ilə münasibətlərdə soyuqluq müşahidə olunur. Lakin soyuqluq olması o demək deyil ki, əlaqələr kəsilib. Bir sözlə, Azərbaycanın nəyisə bəhanə edərək hansısa addımlar atmasını iddia etmək gülüncdür. Azərbaycan özünün müstəqil, milli maraqlara söykənən balanslı siyasətini bundan sonra da davam etdirəcək. İkitərəfli münasibətlərin inkişafı üçün səy göstərəcək. Əminəm ki, zamanında Azərbaycan doğrudan da Şanxay Əməkdaşlıq Təşkilatına həqiqi üzv olmaq istəyəndə bunun qarşısını Hindistan və ya başqa bir dövlət ala bilməz".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



## Poliklinikalarda sıxlıq - səbəb açıqlandı

**TƏBİB poliklinikalarda yaranan sıxlığa aydınlıq gətirib. TƏBİB-dən Modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, ali və orta ixtisas məktəbləri, kolleclər və liseylərdə yeni tədris ilinin başlanması ilə əlaqədar "Sağlamlıq haqqında arayış"lara (TQS 086) tələbat əhəmiyyətli dərəcədə artıb.**

Qeyd edilib ki, təhsilə yeni başlayan uşaqların valideynləri tərəfindən də məktəbəqədər və orta təhsil müəssisələrinə təqdim etmək üçün tibbi sənədlərlə (TQS 026) bağlı müraciətlərdə də artım qeydə alınıb: "2024-cü ilin iyun-avqust aylarında arayışla bağlı müraciət edən uşaq sayı 73 093 nəfər olduğu halda, 2025-ci ilin iyun-avqust aylarında bu rəqəm 85 000 nəfərdən çox olub. Tələbatın əhəmiyyətli dərəcədə artması səbəbindən bəzi poliklinikalarda sıxlıq yaranıb".

O da qeyd olunub ki, TƏBİB tərəfindən kadr təminatı gücləndirilib, tibbi avadanlıqların yenilənməsi və elektron sistemin daha da təkmilləşdirilməsi istiqamətində tədbirlər görülüb: "Arayışların forması, ixtisaslı həkim müayinələri və instrumental-laborator müayinələr Səhiyyə Nazirliyinin qərarları ilə tənzimlənir".

Diqqətə çatdırılıb ki, arayış əldə etmək üçün sağlamlıq vəziyyətinin müəyyən olunması profilaktik müayinə olduğu üçün icbari tibbi sığorta təminatına daxil deyil. Belə ki, sosial layihə olaraq bəzi arayışlar icbari tibbi sığortanın təminatına alınıb. Bunlar 18 yaşa qədər uşaqların bütün növ arayışları - məktəbə, məktəbəqədər müəssisələrə, ali təhsil müəssisəsinə təqdim etmək üçün bütün sağlamlıq arayışlarıdır.

"Arayışlar artıq bütün tabeli tibb müəssisələrində elektron formada təqdim olunur. Vətəndaşlar elektron tibbi arayışı əldə etmək üçün ilk olaraq tibb müəssisəsinə ilkin müraciət etməli, laborator analizlər verməli, ixtisaslı həkim qəbullarından keçməlidir", - bildirilib.

O da bildirilib ki, arayışlar 1 ay müddətində etibarlıdır. 18 yaşa qədər uşaqlardan "Sağlamlıq haqqında arayış"lara görə hər hansı formada ödəniş tələb olunması qanunsuzdur. Belə hallarla rastlaşan vətəndaşlardan dərhal TƏBİB-ə və aidiyyəti qurumlara məlumat vermələri xahiş olunur.

# Azərbaycanlılar ən çox bu xəstəlikdən ölür - xəbərdarlıq

## Ölümlərin əksəriyyətinin səbəbi niyə qan dövranı sistemi ilə bağlıdır - həkimlərdən çağırış



**Ötən il 58909 ölüm faktı qeydə alınıb. Bu, Dövlət Statistika Komitəsinin "Azərbaycanın demoqrafik göstəriciləri" məcmuəsində öz əksini tapıb. Onlardan 32436-ı kişi, 26473-ü qadın olub. Eyni zamanda statistikaya görə, ölümlərin böyük əksəriyyətinin səbəbi qan dövranı sisteminin xəstəlikləri olub. Belə ki, ötən il bu səbəbdən 33289 nəfər vəfat edib.**

Qeyd edək ki, qan dövranı pozulduqda orqanizm "aclıqdan" və oksigen çatışmazlığından əziyyət çəkməyə başlayır. Bu isə müxtəlif pozulmaların inkişafına yol açır. Müasir insanların əksəriyyəti kifayət miqdarda təmiz su içmir. Bu isə xroniki susuzlaşmaya səbəb olur. Susuzlaşma nəticəsində qan qatılaşır. Qatı qan orqanizmdə daha çətinliklə dövr edir.

Qanın və damarların təmizlənməsi son zamanlar dəbli mövzuya çevrilib. Hər kəs tutulan damarları açmaq, qan dövranını təmizlətməklə sağlamlıq barədə düşünür. Hətta bunun üçün bəzi üsullar, prosedurlar, dərmanlar, xalq təbabəti üsulları da təklif olunur.

Ancaq statistika həyəcan təbili çalır. Ona görə də əhalinin qan dövranı xəstəlikləri ilə mübarizəsi üçün təxirəsalınmaz addımlar atması qaçılmaz görünür. İnsanlar nə etməlidir? Əhalinin çoxu nə üçün məhz bu xəstəliklərdən həyatını itirir?

**Bakı Ağrı Klinikasının baş həkimi Zülfüqar Yusifov "Yeni Müsavat"a fikirlərini bölüşüb**: "Ürək-damar xəstəlikləri bütün dünyada ölüm səbəbləri arasında ön sıralarda gedir və bu, yalnız bizim ölkədə deyil, qlobal miqyasda belədir. Halbuki bu sahədə çox ciddi irəliləyişlər var: innovativ tədbirlər görülür, sanballı tədqiqatlar aparılır, yeni dərman preparatları meydana çıxır. Xüsusən də invaziv müalicə metodlarının tətbiqi, ürək-damar xəstəlikləri ilə bağlı əməliyyatların uğurla aparılması mühüm nəticələrdir. Ancaq bütün bunlara baxmayaraq, ürək-damar xəstəliklərindən ölüm halları hələ də ön sıralarda qalır. Xüsusilə qəfil ölümlər daha çox narahatlıq doğurur. Çünki belə hallarda çox vaxt həkim yardımına və təcili tibbi yardıma vaxtında çatmaq olmur, müdaxilə gecikir və pasiyentin həyatını xilas etmək mümkün olmur. Ürək-damar sistemi xəstəliklərində əsasən damarların tıxanması baş verir. Əgər ürəyin özünü qidalandıran damarlar tutulursa, ürək toxumasına qan, onunla birlikdə isə oksigen və qidalı maddələr daxil olmur. Bu, həmin nahiyədə işemiyaya, nekroza - yeni toxuma ölümünə səbəb olur. Nəticədə insan həyatını itirə bilər. Xüsusilə də tıxanma geniş sahəni və daha həssas bölgəni əhatə edirsə, nəticələr daha ağır olur.

Əsas səbəblərdən biri kimi buna Virxov triadası deyilir. Burada üç mexanizm əsas rol oynayır: qanın axınının yavaşlaması, damar divarının hər hansı səbəbdən zədələnməsi, qanın laxtalanmaya meyilli olması. Bu üç səbəbdən çıxış etsək, ürək-damar xəstəliklərindən biri hərəkətdir. Fiziki aktivlik damarların fəaliyyətini birbaşa stimullaşdırır və onların sağlam qalmasına kömək edir. Ürək əzələsini işlədir. Nəticədə qan dövranının sürəti daha adekvat olur, qanın axını normaya uyğunlaşır. Bu səbəbdən də daim vurğulanır ki, ürək xəstəliyi olan insanlara, eləcə də ürək xəstəliklərindən qorunmaq istəyənlərə mütləq şəkildə fiziki hərəkətlilik lazımdır".

**Onun fikrincə, üçüncü məsələ qan laxtalanması ilə bağlıdır:** "Əlbəttə, həddindən artıq çox su içmək də arzuolunan deyil, amma gündə orta hesabla 2-3 litr təmiz su içmək tövsiyə olunur. Virxov triadasından kənara çıxaraq dördüncü faktora da diqqət etmək lazımdır. Bu da sinir mənşəli spazmlardır. Xüsusən simpatik sinir sisteminin aktivləşməsi nəticəsində damar spazmları yarana bilir. Belə hallarda damar divarının tonusu dəyişir, qan axını zəifləyir, qan çox qısa sürətdə laxtalanır. Stress və əsəbilik nəticəsində damar spazmları daha da güclənir və qapalı bir dairə formalaşır: stress, damar spazmı, qan axınının zəifləməsi, laxtalanma və toxuma ölümü.

Xüsusilə siqaret damar spazmlarına səbəb olan ən ciddi faktorlardan biridir. Bu, təkcə ürək damarlarına deyil, aşağı ətraf damarlarına da təsir edir. Hətta siqaret çəkmək nəticəsində ayaqlarını və barmaqlarını itirən xəstələrlə də rastlaşırıq".

**Həkim qeyd edib ki, səhiyyə sistemi də insanların sağlamlığının qorunması istiqamətində mühüm addımlar atmalıdır:** "Əslində ölkəmizdə bunun üçün bütün şərait mövcuddur: avadanlıqlar, müasir tibbi mərkəzlər və peşəkar kadrlar. Sadəcə, vətəndaş özü də məsuliyyətli yanaşmalı, həkim-pasiyent dialoqu adekvat olmalıdır. Əgər bu məsələlər kompleks şəkildə həyata keçirilsə, ürək-damar xəstəliklərindən qorunmaq sahəsində ciddi irəliləyişlər əldə etmək mümkündür".

**Cərrah həkim, professor Adil Qeybulla da mövzu ilə bağlı "Yeni Müsavat"a şərh verib:** "Bu sual bu günün ən aktual məsələlərindən birinə çevrilib. Bütün dünya üzrə demoqrafik fəlakət yaşanır. Bilirik ki, hazırda müxtəlif bölgələrdə müharibələr gedir, insanlar doğma yaşayış yerlərini tərk etməyə məcbur olurlar. Müharibə zamanı aclıq, fəlakət, susuzluq, humanitar böhran, hətta epidemiya təhlükəsi hər zaman mövcud olur. Əsas məsələ odur ki, bu gün dünyada içməli su problemi çox ciddi şəkildə gündəmdədir. Niyə? Çünki dünya əhalisi dayanmadan artır. Bu artım həm faunanı, həm də floranı məhv edir, təbiətə zərbə vurur. İnsanlar artdıqca özlərinə yeni yaşayış şəraiti yaratmağa çalışır və nəticədə təbii tarazlıq pozulur. Məsələn, elə Bakıya nəzər salaq. Təxminən 30-40 il əvvəl Abşeron yarımadasında geniş açıq sahələr vardı. O yerlərdə həm yaşıllıq, həm də heyvanlar vardı. Amma indi demək olar ki, Abşeron yarımadasında bir qarış boş torpaq belə yoxdur. Bütün ərazilər insanlar tərəfindən zəbt edilib, binalar və infrastruktur inşa olunub. Bəs bu heyvanlar harada bəslənməlidir? Axı heyvanlar ekosistemin bir parçasıdır və çox vacib funksiyaları yerinə yetirirlər. Onlar olmasa, ekoloji balans pozulur.

Nəticədə, belə situasiyalarda içməli su problemi və digər ekoloji böhranlar da yaranır. İnsanların sağlamlığı təhlükəyə düşür. Yer kürəsində hər şey insan üçün nəzərdə tutulmuş kimi görünə bilər: insanlar artmalıdır, çoxalmalıdır, hər yeri tutmalıdır. Amma heyvanlar, bitkilər və digər canlılar olmazsa, insanlar necə yaşaya biləcək? Bu səbəbdən məsələ bütün dünyada ciddi şəkildə diqqət mərkəzindədir və hələ də aktual olaraq qalır".

**Professor qeyd edib ki, dünyanın qlobal istiləşməsi və istilik tənzimləmə mexanizminin pozulması ələ və problemlərə səbəb olub:** "Neftin, qazın və digər yanma məhsullarının atmosferə atılması davam edir. Bu, karbon qazının həddindən artıq toplanmasına səbəb olur və nəticədə atmosferdə istilik qalır, Yer kürəsinin istilik tənzimi pozulur. Bu da ekoloji balansın pozulmasının ciddi səbəblərindən biridir. Əhali artdıqca, qida maddələrinin keyfiyyəti də düşür. Bu gün marketlərdə keyfiyyəti aşağı olan qidalar çoxdur və insanların yediyi qidalar da əsasən bunlardan ibarətdir. Belə vəziyyətdə qan damar xəstəlikləri də artır. Çünki bizim yediklərimiz qanımıza sorulur, qan damarlarının divarında maddələrin yanma məhsulları çökür və nəticədə damarlar daralır. Bu isə insult və infarkt kimi xəstəliklərin vaxtından əvvəl meydana çıxmasına səbəb olur".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 157 (8767) 4 sentyabr 2025

# "Könlü balıq istəyənin..." - sentyabr gəldi, bazar canlandı







**Balıqsevərlər üçün sentyabr, sadəcə, payızın başlanğıcı deyil, həm də süfrələrə sağlamlıq və ləzzətin qayıdış müjdəsidir. Zülal, D vitamini, fosfor və kalsiumla zəngin olan balıq əti insan orqanizmi üçün əvəzolunmazdır. Təsadüfi deyil ki, alimlər mütəmadi balıq istehlakının iflic və ürək-damar xəstəliklərinin qarşısını aldığını bildirirlər. Amma yay aylarında - maydan avqusta qədər mütəxəssislər balıq yeməyi tövsiyə etmirlər. Bunun səbəbləri müxtəlifdir: kimisi balıqların kürü tökməsini əsas gətirir, kimisi də istidə balığın tez xarab olub zəhərlənmələrə yol açmasından danışır.**

Nəzərə alsaq ki, hələ də havalar isti keçir, bəs bu, alıcılıq qabiliyyətinə təsir edirmi? Balıqlar hansı şəraitdə satılır? Qiymətlər ötən mövsümdəki kimi yüksəkdirmi? Musavat.com-un əməkdaşı bu suallara cavab tapmaq üçün üz tutdu Bakının ən iri satış nöqtələrindən biri olan "8-ci kilometr" bazarına.

**"Alıcı sarıdan korluq yoxdur"**

Bazarın gurultusu arasında balıq piştaxtalarının önündə dayanırıq. Soyuducuların içində sıra-sıra düzülmüş balıqların gözləri, pulları elə parıldayır, sanki alıcısını gözləyir. Bizimlə söhbətdə satıcı Məmməd dedi ki, hazırda müştəri qıtlığı yoxdur: "Alıcı sarıdan korluq çəkmirik. Hələ ki havalar isti keçir, amma yavaş-yavaş müştərilər də gəlir. Əslində istinin balığa bir təsiri yoxdur. Əsas odur ki, balıq təzə olsun. İndi şərait əvvəlki kimi deyil. Baxın, burada vitrin soyuducularımız, buz aparatlarımız var. Hər şey sərin şəraitdə saxlanılır. İstəsəniz, yaxınlaşıb baxa bilərsiniz, hamısı təmiz və təzədir".

O, qiymətləri də sadalayır. Əlində balığı göstərərək: "Xanı balığının kilosu 6 manatdır. Sazan balığı 7-8 manat arası dəyişir. Farel 11-12 manatdır. Sudak - çay balığıdır - 10-12 manatdır. Türkiyədən gətirilən Çubra 16-17 manat, Libret isə 20-22 manatadır. Bax bu da kütümdür, balacası 8-12 manatdır, böyüyü 15-17 manat. Kefal isə 7-10 manat arası dəyişir".

Satıcının sözlərinə görə, qiymətlər ötən illə müqayisədə dəyişməyib. Bahalı balıqların səbəbi isə tədarükün az olmasıdır: "Türkiyə balıqları az gəlir, ona görə qiymət yüksəkdir".

**Antisanitariya dövrü geridə qalıb**

Reportajımız zamanı diqqətimizi ən çox çəkən məqamlardan biri satış şəraitidir. Əvvəllər bu bazarın kənarında balıq satışı antisanitar vəziyyətdə aparılırdı. Palçıqla balıq az qala iç-içə satılırdı. Satıcı da deyir ki, vəziyyət dəyişib: "Məhsullar səliqəli yerdə, soyuducularda, qablaşdırılmış formada saxlanılır. Hər gün məhsullar sağlamlıq kağızı ilə bərabər gətirilir, aidiyyəti qurumların qaiməsi və sertifikatı ilə təqdim olunur".

**Məmməddən süni yetişdirilən balıqlar barədə də soruşuruq. Onun cavabı birmənalıdır:** "Müştərini aldatmaq olmaz. Sazan, farel, xanı balığı göllərdə yetişdirilir. Yalnız kütüm, kilkə kimi balıqlar süni yetişdirilmir".

**"İrandan gələn balıqlar da keyfiyyətlidir"**

Bir qədər irəlidə, başqa piştaxtada isə **Xanım adlı satıcı** ilə həmsöhbət oluruq. Onun sözlərinə görə, müştərilər dəniz balığına daha çox üstünlük verirlər: "Bizim balıqlar əsasən Mingəçevirdən, Balakəndən, Pirallahıdan və İrandan gətirilir. Məsələn, kütüm var 10-15 manat arası. Çəki balığı 9-10 manatdır. Farelin balacası isə 10-11 manatdır. İrandan gətirilən balıqlar haqqında bəziləri danışır ki, guya keyfiyyətsizdir. Yalan deyirlər! İrandan gətirilən balıqlar da yaxşıdır. Baxın, bu farel İrandan gəlir, amma keyfiyyətinə söz ola bilməz".

**Payızın balıq süfrəsi**

Bazar gəzintimiz göstərdi ki, payızın başlanğıcı ilə balıq bazarında da canlanma müşahidə olunur. Soyuducular, qablaşdırma və sertifikat sistemi alıcıların inamını artırıb. Qiymətlər hələlik ötən ildən fərqlənmir, seçim isə olduqca genişdir: çay balıqlarından dəniz məhsullarına, yerli göllərdə yetişdirilən sazan və fareldən tutmuş Türkiyədən gətirilən çubraya qədər.

**Sonda satıcı Məmmədin dediyi bir cümlə qulağımızda qalır:** "Ən əsası odur ki, balıq təzə olsun. Fəsil dəyişsə də, təzə balığın dadı dəyişmir".

❑ Afaq MİRAYİQ,
Foto müəllifindir

# Kriptovalyuta bazarında nələrə diqqət edək?



**Son illər kriptovalyuta bazarı bütün dünyada böyük maraq doğurur. Bitcoin, Ethereum və digər rəqəmsal aktivlər təkcə sərmayə vasitəsi kimi deyil, həm də ödəniş aləti kimi istifadə olunmağa başlayıb.**

Mütəxəssislərin sözlərinə görə, kriptovalyutanın əsas fərqi onun mərkəzləşdirilməmiş sistem üzərində qurulmasıdır. Yəni bu pul növü nə bankların, nə də dövlətlərin birbaşa nəzarətindədir.

Əməliyyatların blokçeyn texnologiyası ilə aparılması isə həm təhlükəsizlik, həm də şəffaflıq baxımından üstünlük yaradır.

Artıq dünyanın bir çox ölkəsində onlayn mağazalar, turizm şirkətləri və hətta bəzi aviaşirkətlər kriptovalyuta ilə ödəniş qəbul edir. Bu da rəqəmsal pulların gündəlik həyatda rolunun artdığını göstərir.

Lakin risklər də az deyil. Kriptovalyutaların qiyməti qısa müddətdə kəskin dəyişə bilir. Bu isə sərmayəçilərə həm böyük qazanc, həm də ciddi zərər gətirə bilər. Eyni zamanda bəzi ölkələrdə hüquqi mexanizmlərin olmaması fırıldaqçılıq hallarına yol açır.

Azərbaycanda kriptovalyutaların ödəniş vasitəsi kimi istifadəsi hələ qanuniləşdirilməyib. Bununla belə, çox sayda vətəndaş beynəlxalq birjalar vasitəsilə sərmayə yatırır.

İqtisadçılar isə xüsusən gənclərə xəbərdarlıq edirlər: bu sahəyə daxil olmadan əvvəl maariflənmək, riskləri öyrənmək və yalnız itirə biləcəkləri qədər vəsait qoymaq lazımdır.

Dünyada kriptovalyutalar sürətlə yayılaraq milyonlarla insan üçün əsas investisiya vasitəsinə çevrilib. İnkişaf etmiş ölkələrdə bu rəqəmsal aktivlər həm alqı-satqı, həm də sərmayə məqsədilə geniş istifadə olunur. Lakin bəzi ekspertlər kriptovalyutaların gələcəyinə skeptik yanaşırlar.

**İqtisadçı Natiq Cəfərli Musavat.com-a açıqlamasında bildirib ki, kriptovalyutalar sabit maliyyə aləti deyil:** "Kriptovalyutalar perspektivi olmayan, spekulyativ bir sahədir. Burada qiymətlərin qalxıb-azalması sırf spekulyativ faktorlarla bağlıdır və həddindən artıq qeyri-sabitdir. ABŞ Prezidenti Donald Tramp və onun komandası kriptovalyutalara müsbət yanaşır deyə bu münasibət dünya bazarında qiymətlərin yüksəlməsinə təsir edir. Sabah ABŞ-nin mövqeyi dəyişsə, qiymətlər də sürətlə düşə bilər".

**Ekspert əlavə edib ki, kriptovalyutaların məqsəd və məğzini anlamaq hələ də çətindir:** "Alış-veriş etmək üçün elektron pullar, kartlar, bank hesabları mövcuddur. Kriptovalyutalar nəyə lazımdır? Bu suala heç kimin konkret cavabı yoxdur. Onları cəlbedici edən əsas məqam anonimlikdir. Lakin məhz bu anonimlik kriptovalyutaları kriminal fəaliyyətlər, vergidən yayınma və digər qanunsuz əməliyyatlar üçün əlverişli edir".

Natiq Cəfərlinin fikrincə, kriptovalyutalara artan maraq həm də onların kölgə iqtisadiyyatında istifadəsinə şərait yaradır.

Buna baxmayaraq, ekspert qeyd edib ki, dünyada artan tendensiyalar nəzərə alınarsa, bu sahənin gələcəkdə Azərbaycanda da inkişaf etməsi ehtimalı yüksəkdir.

❑ Sultan MƏMMƏDLİ,
"Yeni Müsavat"

## İsrail sülhməramlılara hücum etdi

**İsrail ordusu Livandakı BMT sülhməramlılarına (UNIFIL) yaxın əraziyə dörd qumbara atıb.**

Bu barədə “Əl-Ərəbiyyə” məlumat yayıb.

Məlumata görə, bir qumbara sülhməramlıların 20 metrliyinə, digər üçü isə 100 metr məsafəyə düşüb. UNIFIL bildirib ki, İsrail ordusu yol təmizləmə işləri barədə əvvəlcədən məlumatlandırılmışdı.

Qeyd edək ki, hadisə noyabr atəşkəsindən sonra ən ciddi hücumlardan biri kimi qiymətləndirilib və BMT Təhlükəsizlik Şurasının 2006-cı il qətnaməsinin pozuntusu sayılıb.

## “Zəngəzur dəhlizinin açılmasına maneə var”- rus ekspert



**Ermənistanla Azərbaycan arasında Zəngəzur dəhlizi ilə bağlı sazişlərin ŞƏT-ə heç bir aidiyyəti yoxdur.**

Axar.az xəbər verir ki, bunu rusiyalı ekspert Nikolay Silayev deyib.

“Birincisi, onların müqavilələrinin ŞƏT-lə heç bir əlaqəsi yoxdur. İkincisi, Zəngəzur dəhlizinə maneə ondan ibarətdir ki, onun işə düşməsi üçün Ermənistan qanunvericiliyi dəyişdirilməlidir”, - o bildirib.

## Analitik: “Gürcüstan Kremlin əlində oyuncağa çevrilib”



**“Cənubi Qafqazda gedən geosiyasi proseslərdən Gürcüstan kənarda qalıb. Orta dəhlizin əsas seqmenti olan Zəngəzur dəhlizinin açılması Gürcüstanın izolyasiya olunmasına gətirib çıxaracaq”.**

Musavat.com xəbər verir ki, bu sözləri politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloq qeyd edir ki, oliqarx və Rusiyanın adamı B.İvanaşvilinin nəzarətində olan "Gürcü Arzusu" hökuməti nə Qərblə anlaşa bilir, nə də regionda gedən siyasi proseslərlə ayaqlaşa bilir. Moskvadan gələn narrativlərlə hərəkət edir:

“Gürcü Arzusu hökuməti Cənubi Qafqazda Rusiyanın əsas dayağı kimi çıxış edir.

Azərbaycan üçün Gürcüstanın Rusiya ilə deyil, Qərblə əməkdaşlığı daha vacibdir. Amma Gürcü hökuməti guya müstəqil siyasət apardığını elan edib. Ümumiyyətlə, bir ölkənin müstəqil və manevr siyasəti üçün onun iqtisadiyyatı və resursları olmalıdır.

Gürcüstan hökuməti Rusiyanın təlimatı ilə hərəkət etməklə 15 il ərzində formalaşmış demokratik sistemi dağıdır. Yaxın perspektivdə Gürcüstan Şimal-Cənub və Şərq-Qərb marşrutundan tam məhrum olacaq. Çünki Tiflisdə oturan hökumət Kremlin göstərişi ilə hərəkət edir".

# Ukrayna müharibəsində dönüş - Zelenskinin Putinə sürprizi

## Avropa liderləri yenidən Zelenski ilə bir araya gəldi - ekspertlərin fərqli gözləntisi



**Xəbər verildiyi kimi, ABŞ Prezidenti Donald Tramp, Ukrayna lideri Volodimir Zelenskinin iştirakı ilə sentyabrın 4-də Parisdə mühüm görüş keçiriləcəyi gözlənilir. Diplomatik mənbələrin bildirdiyinə görə, Fransa prezidenti Emmanuel Makronun ev sahibliyi edəcəyi toplantıya Almaniya kansleri Fridrix Merts, Böyük Britaniyanın baş naziri Kir Starmer, Niderland lideri Mark Ryutte və Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen də qatılacaq.**

Əldə olunan məlumata görə, Yelisey sarayı bu barədə rəsmi açıqlama verməkdən imtina edib. Məlumatın mənbəyi kimi göstərilən “Financial Times” Böyük Britaniyada nəşr olunan və dünyada ən nüfuzlu maliyyə-iqtisadi, həm də siyasi xəbərlər dərc edən qəzetlərdən biridir. Bu media orqanı Qərb diplomatiyası və beynəlxalq siyasət mövzularında etibarlı mənbə hesab olunur.

Bu arada məlumat yayılıb ki, Rusiya ordusu növbəti genişmiqyaslı payız hücumuna hazırlaşır. Ekspertlərin fikrincə, Moskva komandanlığı əsas səylərini Donetsk vilayətinin qalan hissəsini ələ keçirməyə yönəldib. Bu barədə “RBC-Ukrayna” Müharibə Araşdırmaları İnstitutunun (ISW) hesabatına istinadla məlumat yayıb.

Zelenski isə bəyan edib ki, Ukrayna qüvvələri Donbasda əhəmiyyətli uğurlar qazanır və Rusiya ordusu üçün “xoşagəlməz sürprizlər” hazırlayır.

Bu sürprizlər nə ola bilər?

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev** “Yeni Müsavat”a açıqlamasında Ukrayna cəbhəsində vəziyyətin olduqca ağırlaşmasından söz açdı: “Rusiya-Ukrayna müharibəsi gedişatında son günlər baş verənlər, xüsusilə Rusiya tərəfinin verdiyi açıqlamalar onu deməyə əsas verir ki, iki ölkə arasında atəşkəsin əldə olunması, sülh danışıqlarına başlanması gözləntiləri hazırkı durum üçün imkansızdır. Yəni bu o deməkdir ki, Alyaskada keçirilən Putin-Tramp görüşü fiaskoya uğrayıb. Artıq Ağ Ev rəsmiləri də Putinin Trampı aldatdığını, müharibənin davam olunmasında, yeni ərazilərin işğal edilməsində maraqlı olduğunu, o səbəbdən hər hansı sülh danışıqlarına getmək istəmədiyini açıq şəkildə bildirirlər. O səbəbdən bir neçə gündür ki, Avropa İttifaqı liderləri və ABŞ rəsmiləri arasında Rusiyanı dayandıracaq təcili tədbirlərin görülməsi ilə bağlı intensiv danışıqlar gedir. Burada söhbət əsasən Rusiyaya qarşı öldürücü sanksiyalardan və təcili şəkildə Ukraynanın hücum və müdafiə silahları ilə, həmçinin yeni nəsil hava hücumundan müdafiə sistemləri ilə təmin olunmasından gedir. Hesab edirəm ki, Ukraynaya silahların verilməsi əslində aylardır ki, davam edir. Məhz onun nəticəsidir ki, bütün potensialını müharibəyə cəlb etməsinə baxmayaraq Rusiya istədiyini ala bilmir. Eyni zamanda Zelenski yaxın günlərdə Rusiyanın sürprizlərlə qarşılaşacağını deyir. "Financial Times"in ABŞ və Avropa liderlərinin sentyabr ayının 4-də Parisdə görüşəcəkləri barədə məlumatı yuxarıda dediyim intensiv danışıqların tərkib hissəsi kimi qəbul oluna bilər. ABŞ üçün Rusiyaya qarşı planlaşdırılan addımların eynisinin Aİ ölkələri və Böyük Britaniya tərəfindən tətbiq olunması vacibdir. O səbəbdən bu cür planların göz-gözə müzakirə olunub qəbul olunması, həmçinin bu görüşün əks-sədasından Rusiyanın narahat olmaması əsas hədəflərdəndir. Hesab edirəm ki, situasiya hazırda çox gərgin və təhlükəli haldadır. Rusiya təhdidlərlə danışmasına baxmayaraq panik vəziyyətdədir. Dünənə qədər müharibədə ümumi səfərbərlik etməyə ehtiyac olmadığını, həmçinin kənardan gələn hər hansı xarici dövlətin əsgərlərinin döyüşlərdə iştirak etmədiyini israrla deyən rəsmi Kreml artıq dediklərini inkar edən bəyanatlar verməyə başlayıb. Son olaraq, Pekində Şimali Koreya lideri ilə görüşən Putin Kursk vilayəti ərazilərini geri qaytarmaq üçün döyüşən Şimali Koreya əsgərlərinə görə ona təşəkkür etdi. Bilərəkdən və ya bilməyərəkdən Ukrayna ilə döyüşməyə canlı qüvvəsinin yetərli olmamasını etiraf etdi. Ən əsası isə Aİ ölkələrini Ukraynaya əsgər göndərməmələri üçün təhdid edən Rusiya özü Şimali Koreyanın müharibəyə cəlb olunmasını açıq şəkildə etiraf etmiş oldu. Hesab edirəm ki, bu faktın etiraf olunması Ukraynaya daha ciddi şəkildə yardımlar olunması üçün qapıları daha geniş açdı. Trampın özünü aldadılmış hesab etməsi, Rusiyaya inanıb yenidən danışıqların davam etdirilməsi fikrini arxa plana atması isə yardımların təcili və intensiv olunmasına gətirib çıxaracaq".

**Hərbi ekspert Səxavət Məmmədin fikrincə, Avropanın Ukraynaya konkret dəstəyi olmasa, vəziyyət durmadan Kiyev üçün gərginləşəcək:** “Rusiya-Ukrayna müharibəsi daha şiddətli mərhələyə qədəm qoyub. Artıq nə Qərbin, nə də Rusiyanın sanki sürünən müharibə aparmaq niyyəti yoxdur. ABŞ Prezidenti açıq şəkildə bildirdi ki, Ukrayna torpaq istəyirsə, hücum etməlidir. Əslində məntiqli olanı da budur. Azərbaycan da 30 il boş və mənasız danışıqlar apardı, sonda qanla gedəni qanla geri qaytardı. Bu, Ukraynaya da aiddir. Ukrayna əgər öz sərhədlərinə çıxmaq istəyirsə, hücum etməlidir. Məsələ ondadır ki, hücum etmək üçün də güc lazımdır. Ukraynanın buna gücü çatacaq-çatmayacaq, bunu qısa zamanda görəcəyik. Ukrayna ordusu xüsusilə Donetsk istiqamətində hücum əməliyyatları həyata keçirir. Hücumları qismən uğurlu hesab etmək olar. Ancaq bunun davamlı olacağı sual altındadır. Çünki bu hücumlar total yox, yalnız müəyyən istiqamətdə və dar çərçivədə həyata keçirilir. Ukrayna ordusu bir neçə kəndi işğaldan azad edə bilib. Ancaq bunun üçün daha böyük qüvvəyə, daha böyük dəstəyə ehtiyacı var. Rusiya ordusu payız hücumuna hazırlaşır. Payızda hücumlar daha effektiv ola bilər. Bunun əsas səbəblərindən biri dronlarla bağlı olacaq. Havanın dumanlı və yağışlı keçməsi dronların fəaliyyətini çətinləşdirir. Misal üçün, Azərbaycanın Qarabağda keçirdiyi antiterror əməliyyatı zamanı PUA-lardan istifadə etmək mümkün olmadı. Rusiya payızda genişmiqyaslı hücumlar edərək Donbasın işğalını yekunlaşdırmaq istəyir. Rusiyanın bunu bacaracağı da sual altındadır. Çünki cəbhə xətti həddindən artıq genişdir. Rusiyanın isə məqsədi tam şəkildə aydın deyil. Ukrayna birbaşa cəbhədə deyil, daha çox Rusiyanın dərinliklərində hansısa əməliyyatlar keçirərək ruslara zərbə vurmaq taktikası seçib. Ancaq bu, ruslara zərər versə də, işğal faktını dəyişmir. Ukrayna tərəfini də anlamaq olar. Hücuma keçmək üçün qüvvələr nisbətini dəyişməlidir. Hazırda Ukraynanın insan resursu qüvvələr nisbətini dəyişməyə imkan vermir. ABŞ faktiki olaraq silah ticarəti ilə məşğuldur. Ukrayna yalnız Avropa dövlətlərinin ümidinə qalıb. Açığı, Avropa İttifaqı da demək mümkün deyil. Çünki Avropa İttifaqı ölkələrinin xeyli hissəsi bu müharibədə tərəf olmaq istəmir. Ona görə də, Fransa, İngiltərə və Almaniyanın alacağı qərarlardan çox şey asılı olacaq. Qərar yardımla bağlı yox, konkret dəstəklə bağlı olmalıdır. Əgər bu baş verməsə, sahədə vəziyyəti dəyişmək çox çətin olacaq”.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 157 (8767) 4 sentyabr 2025

# Tıxac iqtisadiyyata milyardlarla manat zərər vurur

**Yeni tədris ilinin yaxınlaşması ilə birlikdə Bakıda nəqliyyat sıxlığının daha da artacağı gözlənilir. On minlərlə yeni şagird və tələbənin paytaxta gəlməsi şəhərdə mövcud tıxac problemini daha da dərinləşdirəcək. İqtisadçılar bildirir ki, tıxacların yaratdığı itkilər təkcə vaxtla məhdudlaşmır, Azərbaycanın ümumi iqtisadiyyatına hər il azı 1-2 milyard manat zərər vurur.**

Modern.az-a açıqlamasında **iqtisadçı ekspert Eyyub Kərimli** qeyd edib ki, ümumilikdə, tıxac problemi dünya ölkələrinin iqtisadiyyatına hər il trilyonlarla dollar zərər vurur. Onun sözlərinə görə, beynəlxalq hesabatlarda da bu faktlar xüsusi olaraq vurğulanır: "Sıxlıq səbəbindən yanacaq sərfiyyatı artır, ailə büdcəsinə əlavə xərclər düşür, həmçinin ətraf mühitə mənfi təsirlər güclənir. Tıxaclar atmosferə atılan zərərli qazların miqdarını artırmaqla yanaşı, ekoloji tarazlığın pozulmasına, nəticədə isə insanların sağlamlığına və psixoloji vəziyyətinə də mənfi təsir göstərir. Bütün bu hallar nəticədə stress, yorğunluq və sağlamlığa ciddi zərərlə müşayiət olunur".



**Ekspert vurğulayıb ki, yolların davamlı şəkildə genişləndirilməsi də bu problemin bir başqa tərəfidir**: "Yeni yolların salınması və infrastrukturun genişləndirilməsi üçün ayrılan vəsait digər sahələrin inkişafı üçün nəzərdə tutulan büdcənin azalmasına səbəb ola bilir. Beləliklə, tıxacların iqtisadi yükü daha da artır.

Tıxac probleminin aradan qaldırılması fonunda isə bir sıra alternativ həll yolları mövcuddur. Bunlara diversifikasiya olunmuş iş rejiminin tətbiqi, insanların yaşadıqları ərazilərə yaxın təhsil və iş infrastrukturunun qurulması daxildir. Məsələn, təhsil müəssisələrinin yaşayış massivlərinə yaxın ərazilərdə yerləşdirilməsi, şagirdlərin, tələbələrin və müəllimlərin uzun məsafə qət etməsinin qarşısını ala bilər".

**E.Kərimli bildirib ki, bu yanaşma həmçinin şəhərdə nəqliyyatın sıxlığını da azalda bilər:** "Avropa ölkələrində insanlar iş yerlərinə yaxın ərazilərdə kirayə mənzillərdə yaşamağa üstünlük verir ki, bu da gündəlik nəqliyyat axınının həcmini azaldır.

Eyni zamanda bəzi ali təhsil müəssisələrinin və dövlət qurumlarının mərkəzdən, xüsusilə Bakının mərkəzindən - regionlara köçürülməsi də problemin həllinə töhfə verə bilər. Bu, şəhərin yükünü azaltmaqla yanaşı, regionların inkişafına da təkan verəcək faktorlar sırasındadır".

**İqtisadçı onu da əlavə edib ki, tıxacların iqtisadiyyata mənfi təsiri ÜDM-in 1-5% arasında dəyişə bilir:** "Bunun tərkib hissəsinə yol qəzalarının artması, sığorta hadisələrinin çoxalması və nəqliyyat vasitələrinin texniki nasazlıqlar səbəbilə daha tez sıradan çıxması da daxildir.

Beləliklə, tıxac problemi təkcə nəqliyyat məsələsi deyil, həm də sosial, iqtisadi və ekoloji aspektlərdən çoxşaxəli bir problemdir və onun həlli yalnız kompleks yanaşmalarla mümkündür".

## Ölkədə 35 kişi məişət zorakılığına məruz qalıb - rəsmi

**2025-ci ilin 7 ayı ərzində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə məişət zorakılığı ilə bağlı 302 müraciət daxil olub. Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən məlumat verilib.**

Bildirilib ki, müraciət edənlərin 68-i psixi, 21-i iqtisadi, 207-si fiziki, 6-sı cinsi zorakılığa məruz qalıb.

Komitədən verilən məlumata görə, məişət zorakılığına məruz qalanların 35-i kişi, 286-sı qadın, 253-ü uşaq (149-u oğlan, 104-ü qız) olub: "Kişilər daha çox psixi, bəzi hallarda iqtisadi zorakılığa məruz qalıblar. Onların müraciətləri əsasən uşaqları ilə ünsiyyət, uşaq tələbi, uşaqlara ana-ları tərəfindən zorakılıq edilməsilə bağlı olub".

Dövlət Komitəsinə 2024-cü il ərzində uşaqlara qarşı törədilən zorakılıq halı ilə bağlı 455 müraciət daxil olub.

"2025-ci ilin ilk 7 ayı ərzində isə 258 müraciət qeydə alınıb. Onlardan 152-si oğlan, 106-sı qız uşaqlarına qarşı törədilmiş zorakılıq hallarıdır",- qurumdan bildirilib.

## Maşın bazarında ciddi durğunluq - səbəblər

**Azərbaycan avtomobil bazarında maraqlı və eyni zamanda narahatedici dinamika müşahidə olunur. Belə ki, müasir texnologiyalarla təchiz olunmuş, əlçatan qiymətli avtomobillərin bazara çıxması istehlakçılar üçün yeni imkanlar açır.**

Digər tərəfdən isə bu dəyişikliklər yerli dilerlərin mövqeyini zəiflədərək avtomobil idxalı sahəsində qeyri-rəsmi kanalların üstünlük qazanmasına yol açır. Belə bir vəziyyətdə həm istehlakçıların seçimləri, həm də bazarın gələcək istiqamətlərilə bağlı bəzi suallar meydana çıxır. Mövcud tendensiyalar bazarda ədalətli rəqabətin, eləcə də şəffaf ticarət mühitinin formalaşmasının nə qədər vacib olduğunu bir daha göstərir.



Modern.az-a açıqlamasında **Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının icraçı direktoru Eyyub Əliyev** qeyd edib ki, hazırda avtomobil bazarında qiymət artımı görünmür. Onun sözlərinə görə, əksinə, qiymətlərdə nəzərəçarpacaq dərəcədə enmə müşahidə olunur: "Xüsusilə Çin avtomobil sənayesinə məxsus modellər bazarda üstünlük təşkil edir və bu maşınların daha münasib qiymətlərlə təklif olunması müştəriləri qane edir. Lakin təəssüf doğuran məqam ondan ibarətdir ki, satışda olan bu avtomobillərin böyük əksəriyyəti rəsmi zəmanətli deyil. Onlar fərdi şəxslər tərəfindən ölkəyə gətirilir və çox zaman Çin bazarı üçün nəzərdə tutulmuş modellər olur".

**Qiymət tendensiyalarına gəldikdə, ekspert deyib ki, ikinci əl avtomobil bazarında 30-40%-ə qədər enmə müşahidə olunur:** "Bu da satışlara ciddi şəkildə təsir göstərib - hazırda yalnız bu səviyyədə endirim təklif olunduqda satış baş tutur. Başqa sözlə desək, ikinci əl bazarında durğunluq yaşanır".

**Assosiasiya rəsmisinin sözlərinə görə, son 6 ayın statistikası göstərir ki, rəsmi idxalçılar və dilerlərin bazar payı 30%-dən aşağı düşüb.**

"Əvəzində fərdi şəxslərin gətirdiyi avtomobillərin bazar payı 70%-i ötüb. Bu tendensiya rəsmi dilerlər üçün ciddi təhlükə yaradır və onların yaxın gələcəkdə fəaliyyətini dayandırması ehtimalını artırır. Ümid edirik ki, bazardakı vəziyyət stabilləşəcək və nəticədə rəsmi və qeyri-rəsmilər arasında daha ədalətli və şəffaf rəqabət mühiti formalaşacaq", - deyə E.Əliyev bildirib.



## Vətəndaşla klinika arasında dava

**Bakının Nəsimi rayonunda yerləşən 2 nömrəli Klinik Psixiatriya Xəstəxanasının qarşısında vətəndaşla klinikanın mühafizəçisi arasında insident yaşanıb. News24.az xəbər verir ki, hadisə ilə bağlı görüntülər sosial şəbəkədə yayılıb. Avtomobilin parkinqi üstündə yaranan mübahisə əlbəyaxa davaya çevrilib.**

Məsələ ilə bağlı 2 nömrəli Klinik Psixiatriya Xəstəxanasından News24.az-a bildirilib ki, ərazidəki konuslar Təcili Tibbi Yardım avtomobillərinin dayanması üçün quraşdırılıb.

"Bu, xəstəxananın fəaliyyətinin səmərəliliyi, xəstələrin həyatı və sağlamlığının qorunması baxımından vacibdir. Tibbi müəssisələrin bu kimi zonalarında qanunvericiliklə xüsusi mühafizə təmin edilib, çünki həyat xilas etmək prioritetdir. Vətəndaşlardan da bu qaydalara riayət etmələrini xahiş edirik. Vətəndaşın həmin ərazidə avtomobil saxlaması səbəbindən mühafizəçi ilə mübahisə yaranıb. Xəstəxana rəhbərliyi məsələni hüquq-mühafizə orqanlarına çatdırıb və hazırda araşdırma aparılır", - deyə açıqlamada qeyd olunub.



## Toy savaş meydanına çevrildi: uzaqdan bir salama görə...

**Astara rayonunda toyda dava düşüb, 32 yaşlı kişi həmyerlisinə xəsarət yetirib. Demokrat.az-ın əldə etdiyi xəbərə görə, hadisə ötən il oktyabrın 29-da rayonun Çayoba kəndində yerləşən "Ümid" restoranında baş verib.**

Rayon sakini, 1993-cü il təvəllüdlü Nail həmin gün saat 19 radələrində restoranda keçirilən toy şənliyi zamanı Elmanın stol ətrafında oturan bəzi şəxslərlə əlbəəl görüşüb, ona uzaqdan salam verməsini bəhanə gətirib.

Təqsirləndirilən şəxs heç bir əsaslı səbəb olmadan zərərçəkmiş şəxsə qarşı nalayiq ifadələr işlədib.

O, Elmanın sinəsindən itələyərək, həmin nahiyəsinə bir dəfə yumruqla zərbə vurub.

Hadisəni törədən təqsirləndirilən şəxsin barəsində Cinayət Məcəlləsinin 221.1-ci (xuliqanlıq, yəni ictimai qaydanı kobud surətdə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi ilə, habelə özgənin əmlakının məhv edilməsi, yaxud zədələnməsi ilə müşayiət edilən qərəzli hərəkətlər) maddəsi ilə ittiham elan edilib.

İş üzrə izahat verən təqsirləndirilən şəxs ona elan olunmuş ittiham üzrə özünü təqsirli bilib.

O bildirib ki, oktyabrın 29-da "Ümid" restoranında toy olub: "Toya mən də getdim. Məclis zamanı spirtli içki qəbul etdik. Toy məclisinə Elman da gəldi. Təxminən saat 19 radələrində Elman mən oturan masaya yaxınlaşaraq tanıdığı şəxslərlə görüşdü. Həmin vaxt mənə də biraz uzaq məsafədə olduğu üçün uzaqdan salam verdi.

Mən də spirtli içki qəbul etdiyimdən Elmanın uzaqdan salam verdiyini özümə pis bildim. Buna görə də ona yaxınlaşaraq restoranın həyətinə getməyi təklif etdim. Həyətə gedən zaman bir az da aqressivləşdim. Elmana restoranın həyətində əgər gələrək salam verirsə, hamıya eyni formada salam verməli olduğunu irad kimi bildirdim. Sonra da sinəsindən tutdum. Ancaq vura bilmədim. Ətrafda olan insanlar məni sakitləşdirdi. Bizi bir-birimizdən ayırdılar. Elmanı vurmamışam, sinəsindən tutaraq mübahisə etmişəm. Ətrafda olan insanlar aramızdakı mübahisəni yatırıblar".

Bu cinayət işinə Astara Rayon Məhkəməsində baxılıb. Məhkəmənin hökmü ilə təqsirləndirilən şəxs 600 manat miqdarında cərimə olunub.

YENİ MÜSAVAT
N 157 (8767) 4 sentyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Bağça uşaqlarının yeməyinə göz dikən direktorlar

## Azyaşlılara nələr verilməlidir, nələr olmaz?..

**Abşeron rayonunun Pirəkəşkül qəsəbəsindəki 21 nömrəli dövlət uşaq bağçası ilə bağlı xoşagəlməz iddialar yayılıb. Valideynlərin sözlərinə görə, uşaqlara antisanitar şəraitdə quru çörək və çay verilir, üst-başları isə bərbad vəziyyətdə evə qaytarılır.**

**Şikayətçilərdən birinin sözlərinə görə, uşaqlara keyfiyyətsiz yeməklər təqdim olunur:** "Toyuğun piylərini, dərisini çəkib kotlet adı ilə uşaqlara yedizdirirlər. Mən hər gün məcbur qalıb uşağa bulka alıram ki, ac qalmasın. Bağçada odun sobası yandırılır, uşaqlar evdən təmiz gedir, qayıdanda isə onlardan his iyi gəlir. Bütün bunlara dözürdük, amma müdirənin uşağımı ayaqyalın yemək vaxtı çölə çıxarmasını heç cür bağışlamıram", - deyə bu barədə sabiq deputat Etibar Əliyev sosial şəbəkədə paylaşım edib.

**Məsələ ilə bağlı Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib ki, daxil olan vətəndaş müraciəti əsasında Abşeron rayonu Pirəkəşkül kənd 21 nömrəli uşaq bağçasında Abşeron-Xızı Regional Təhsil İdarəsi tərəfindən araşdırma aparılıb:** "Araşdırma nəticəsində vəzifə funksiyalarının icrası zamanı yol verdiyi nöqsanlara görə təhsil müəssisəsinin müdiri Xədicə Vəliyeva ilə bağlanmış əmək müqaviləsinə xitam verilib. Bildiririk ki, təhsil müəssisələrində uşaqların düzgün qidalanması, sağlam və təhlükəsiz mühitdə təhsil alması, həmçinin vətəndaşların təhsil müəssisəsinə etimadının artırılması əsas prioritetlərdəndir. Təhsil müəssisələrində hər hansı neqativ halların baş verməsi yolverilməzdir. Bu istiqamətlərdə hər bir müraciət diqqətlə araşdırılır və qanunvericiliyin tələblərinə uyğun tədbirlər görülür".

**Bağçada uşaqlara bu qidaları vermək olmaz**

Əslində qanunvericilik nə deyir? Uşaq gün ərzində nə yeməlidir, nə qədər yeməlidir, qida rasionunda nələr olmalıdır?

**Məktəbəqədər təhsil üzrə mütəxəssis Xalidə Musayeva Azedu.az-a bildirib ki, bütün məktəbəqədər təhsil müəssisələrində hər həftə vahid menyu hazırlanır:** "Məktəbəqədər təhsil müəssisələrində qidalanma rasionu, 103 və 171 saylı qanuna uyğun olaraq müəyyən edilir. Bütün ölkə üzrə məktəbəqədər təhsil müəssisələrində (özəl bağçalar istisna olmaqla) bütün rasionlar bu qayda əsasında hazırlanır. Əslində menyunun hazırlanması özəl bağçalara da aiddir. Amma bəzi hallarda onlara nəzarət edilmədiyi üçün öz istəklərinə uyğun qida menyusu tərtib edə bilirlər.

Hər həftə bütün məktəbəqədər təhsil müəssisələrində vahid menyu tərtib edilir, xüsusi təlimatlar əsasında qidalar hazırlanır. Azərbaycanda müəyyən bağçalar var ki, orada vahid menyu əsasında hazırlanmış qidalar paylanılır. Digər müəssisələrdə isə bağçalara ərzaq paylanılır və bağça daxilində həmin ərzaqlardan yeməklər hazırlanır.

Bağçada uşaqlara qızardılmış kartof, kotlet və bənzəri yeməklər verməyə bizim hüququmuz yoxdur. Bağça daxilindəki bütün qidalar faydalı ərzaqlardan hazırlanmalıdır. Məsələn, qarabaşaq, düyü, bulğur kimi qidalar olmalıdır. Uşaqlar evdə makaron, vermişel və kartof qızartmasını sevsələr də, bu qidaların zərərli olduğu danılmazdır. Biz də bağçada bu qidaları daha faydalı şəkildə, məsələn, kartof qızartmasını buxarda bişirərək uşaqlara təqdim edirik".

**Vahid menyu - ona nə və nələr daxildir?**

**Qida normativləri, gündəlik menyu kimi məsələlər bağça müdirəsinin insafına, eləcə də fərdi istəyinə bağlı ola bilməz. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən bildirilib ki, bu məsələlərə agentlik tərəfindən həssaslıqla yanaşılır və daim diqqət mərkəzində saxlanılır:** "Məktəbəqədər təhsil müəssisələrində təlim-tədris prosesi ilə yanaşı, uşaqların sağlamlığı, təhlükəsizliyi və qidalanması prioritetlərimizdəndir. Bu məsələlərə agentlik tərəfindən həssaslıqla yanaşılır və daim diqqət mərkəzində saxlanılır.

Bildiririk ki, məktəbəqədər təhsil müəssisələrində qidalanma normaları Nazirlər Kabinetinin müvafiq qərarlarına əsasən tənzimlənir və təşkil edilir. Qidalanma gün ərzində bağçaların iş saatlarına görə təmin olunur".

**Agentlikdən qeyd edilib ki 2023-cü ildən etibarən paytaxt və bir sıra bölgələr daxil olmaqla, 446 bağçada qidalanma ilə bağlı pilot layihə icra edilir:** "Layihə çərçivəsində qidalanma prosesi vahid menyu əsasında təşkil olunub. Layihəyə əsasən, qidalanma prosesi bir neçə formada həyata keçirilir. Belə ki, bir sıra məktəbəqədər təhsil müəssisələrinə isti yeməklər özəl şirkətlər tərəfindən çatdırılır. Əksər bağçalarda isə yeməklər məhz müəssisənin özündə hazırlanır.

Bildiririk ki, mövcud normalara əsasən, zülal, karbohidrat, mineral və vitaminlərin balansı gün ərzində menyuda nəzərdə tutulan qidalara görə tənzimlənir. Uşaqların hansı qidalara allergik olmaları ilə bağlı valideynlərlə dəqiqləşdirmələr aparılır və qidalanma zamanı bu amillər nəzərə alınır. Kənardan qidanın gətirilməsinə icazə verilmir və bağça heyəti bununla bağlı mütəmadi maarifləndirilir.

Qeyd edirik ki, 2024-cü ildə Qida Təhlükəsizliyi İnstitutu ilə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin birgə əməkdaşlığı çərçivəsində paytaxt Bakı və regionlarda fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin 1600-ə yaxın müdir, aşpaz və aşpaz köməkçiləri üçün təlimlər keçirilib. Təlim iştirakçıları müəssisələrdə qida məhsullarının qəbulu, emalı, saxlanması, daşınması zamanı gigiyena qaydalarının tətbiqi və digər məsələlər barədə məlumatlandırılıb.

Təlimlərlə yanaşı, məktəbəqədər təhsil müəssisələrində sanitariya-gigiyena və qida təhlükəsizliyi ilə bağlı tələblərə riayət olunub-olunmamasına dair monitorinqlər keçirilir. 2024-cü ilin sonunadək paytaxt və bölgələrdə 450 bağçada sanitariya-gigiyena qaydalarının və qida təhlükəsizliyinin təmin olunması ilə bağlı fəaliyyətlər icra edilib".

**Bağça menyularında kənara çıxmalar - səbəb nədir?**

Pediatrlar isə araşdırma zamanı müəyyənləşdirib ki, uşaq müəssisələrində qidalanmanın təşkilində menyunun tərtibi çox vacib rol oynayır. Bu tərtibat zamanı uşağın gün ərzində nə qədər kalori almalı olduğu əsas götürülür. 3-7 yaşlı uşaqlar 1800 kaloriyə qədər enerji almalıdır. Bu kalori gündəlik olar bölünməlidir.

Menyular iki cür tərtib edilməlidir. Qidalanma rejimi uşaqların inkişafda olan orqanizmini enerji və əsas qida maddələri ilə təmin etməlidir. Qanunvericiliyə görə, yeməyin keyfiyyəti, yeməklərin hazırlanma səviyyəsi haqqında müvafiq qeydlər aparıldıqdan və müayinə üçün nümunə götürüldükdən sonra hazır yeməklərin uşaqlara paylanmasına icazə verilir. Porsiyalara ayrılmış yeməklərin çəkisi bölgü menyusundakı göstərici ilə eyni olmalıdır.

Əgər hər hansı çatışmazlıqlar qeyd olunarsa, yalnız çatışmazlıqlar aradan qaldırıldıqdan sonra yeməklərin paylanmasına icazə verilir.

"Monitorinqlərin nəticəsində məktəbəqədər təhsil müəssisələrinin məsul şəxsləri və qida blokunun əməkdaşlarının bu sahədə çox zəif biliklərə sahib olduqları, ya da ümumiyyətlə, olmadıqları müəyyənləşib. Hətta qida sahəsindəki normativ hüquqi aktlardan xəbərsizdirlər".

Bu fikirləri isə Qida Təhlükəsizliyi Agentliyindən bildiriblər. Belə ki, təhsil müəssisəsində tərtib olunan menyular uşaqların yaş qrupuna uyğun olaraq fizioloji normaların qarşılamır. Yəni gün ərzində bir uşağa tələb olunan maddəli qidalar və enerji çatdırılmır. Menyularda normalardan kənaraçıxmalar olur.






# Məktəb müəllimləri vahid geyim formasına keçdi

**Samux rayonu Qarayeri qəsəbə 2 nömrəli tam orta məktəbin kollektivi 2025-2026-cı tədris ilindən vahid məktəbli geyim formasından istifadə edəcək. Modern.az xəbər verir ki, bu barədə məktəbdən bildirilib.**

Məlumata görə, ötən tədris ilində keçirilmiş Pedaqoji Şurada bu barədə yekdil qərar qəbul edilib.

Yeni tədris ilindən müəllimlərin yay geyim forması belə olacaq: qadınlar üçün ağ kofta, göy qalstuk və qara ətək; kişilər üçün qara şalvar, ağ köynək və qara qalstuk.

Soyuq aylarda isə jilet və kostyumlardan istifadə nəzərdə tutulur.

Qərar 30 nəfərdən ibarət olan pedaqoji və rəhbər heyətə şamil olunur. Məqsəd müəllimlər arasında bərabərlik prinsiplərini möhkəmləndirmək, nizam-intizamı artırmaq və məktəb mühitində sağlam psixoloji atmosfer yaratmaqdır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 157 (8767) 4 sentyabr 2025

# Avropa əhalisi qocalır - Azərbaycanın çıxarmalı olduğu dərs

## Sosioloq: "Bu, əslində bizim üçün SOS siqnalıdır"

**"Avropada doğum səviyyəsi artmasa, qitə demoqrafik böhranla üzləşəcək". Bu barədə amerikalı sahibkar və milyarder İlon Mask X sosial şəbəkəsində xəbərdarlıq edib.**

Mask senator Mayk Linin Şotlandiya üzrə statistik məlumatlarına belə reaksiya verib: "Bu ilin yanvar-iyul aylarında ölkədə 26,3 min insan doğulub, 35,2 min nəfər ölüb. Əgər doğum səviyyəsi heç olmasa əhalinin yenilənməsi səviyyəsinə qayıtmasa, Avropa məhv olacaq".

Bəs Azərbaycanda demoqrafik durum, ölüm-doğum nisbəti necədir, genofondumuza təhlükə varmı? Əhalinin azalmaması üçün ailədə ən azı neçə uşaq olmalıdır? Avropadakı təhlükə bizi də gözləyə bilərmi? Belə çıxır ki, əhali artımı əslində heç güzərana da birbaşa bağlı deyil?



Qeyd edək ki, hazırda dünyanın üzləşdiyi əsas problemlərdən biri də demoqrafiya göstəriciləri ilə bağlıdır. Son illər bir sıra ölkələrdə əhalinin artım tempinin aşağı düşdüyü müşahidə olunur. Məsələn, 2023-cü il ərzində ABŞ əhalisinin artım tempi 0,53 faiz təşkil edib ki, bu da dünya sürətinin demək olar ki, yarısıdır. 2020-ci illər ABŞ tarixində əhalinin artımı baxımından ən yavaş dövr ola bilər. Artım 10 il ərzində 4 faizdən azdır. Əvvəllər ABŞ-də əhalinin ən yavaş artımı 1930-cu illərin Böyük Depressiyasından sonra qeydə alınıb, o zaman artım tempi 7,3 faiz təşkil edib.

Eləcə də son dövrlər bir çox Şərqi Avropa və MDB dövlətlərində əhalinin artım tempi aşağı düşüb, əhali sayının azalması müşahidə olunur.

Azərbaycana gəldikdə isə məlumdur ki, 2018-ci ildə ölkə əhalisinin sayı 10 milyonu ötüb. Hazırda isə bu göstərici 10 milyon 200 min nəfərdir. Doğrudur, son illər Azərbaycan əhalisinin sayında artım müşahidə olunsa da, demoqrafik artım tempi ilə bağlı vəziyyət o qədər də ürəkaçan deyil. Mütəxəssislər bunu son vaxtlar ölkədə boşanmaların sayının artması, nikahların və yeni doğulan körpələrin sayının azalması ilə əlaqələndirir. Belə ki, rəsmi statistikaya əsasən bu ilin ilk 8 ayı ərzində Azərbaycanda qeydiyyat şöbələri tərəfindən 22250 nikah və 10430 boşanma halları qeydə alınıb. Bununla da ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,8-dən 4,4-ə düşüb, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə (2,1) qalıb.

Eləcə də bu ilin yanvar-iyun aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri ölkədə 45 min 616 doğulan körpə qeydə alıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 9,6-dan 9-a düşüb.

Mövzu ilə bağlı **sosioloq Üzeyir Şəfiyev** "Yeni Müsavat"a qeyd edib ki, ümumiyyətlə, demoqrafik məsələ dünyada ölkələri düşündürən əsas problemlərdən biridir: "Xüsusilə də Avropa ölkələrində əhalinin qocalması prosesi sürətlə gedir. Təbii artımda geriləmə müşahidə olunur və bu, xüsusən də Avropa dövlətləri üçün ciddi təhdidə çevrilib. Çünki ahılların sayı artır, yeni gənc nəsil isə kifayət qədər formalaşmır. Bu isə dövlətin maliyyə yükünü artırır, ümumi əhalinin keyfiyyət göstəricilərini aşağı salır və nəticədə ölkələr miqrant axınına, yəni mexaniki artıma ehtiyac duyurlar.

Avropada miqrasiya problemi də məhz buradan qaynaqlanır. Almaniya, Fransa, İngiltərə və digər ölkələrdə miqrant məsələsi ən ciddi problemlərdən birinə çevrilib. Çünki orada düşünürlər ki, miqrantlar yerli əhaliyə təsir göstərir, onların mədəniyyətinə və ən əsası genofond təhlükəsizliyinə zərbə vurur. Avropa dövlətlərinin öz dilləri ilə desək, "təmiz irq" anlayışı miqrantların hesabına dəyişir və bu, narahatlıq doğurur.

Əslində əhalinin artımında ləngimə və geriləmə təkcə Avropada deyil, dünyanın digər qitələrində də müşahidə olunur".

**Azərbaycana gəldikdə isə sosioloq bildirir ki, dövlətin sosial xidmətlər haqqında proqramında qeyd olunub ki, son 22 ildə ölkə əhalisinin sayı təxminən 26,4 faiz artıb. Ancaq eyni dövrdə ahılların sayı 99,4 faiz yüksəlib:** "Bu, əslində Azərbaycan üçün SOS siqnalıdır. Yəni ölkəmizdə demoqrafik artımda ləngimə müşahidə olunur və əhalinin qocalması ehtimalı yüksəlir. Statistikaya görə, əgər ahılların (65 yaşdan yuxarı) sayı ümumi əhalinin 8 faizindən çoxdursa, həmin ölkə "qocalmış əhali" kateqoriyasına daxil edilir. Hazırda Azərbaycanda bu göstərici təxminən 11 faizdir.

Doğum və ölüm nisbətinə nəzər salsaq, son illərdə doğum səviyyəsinin aşağı düşdüyünü görürük. İl ərzində orta hesabla 73 min abort qeydə alınır ki, bu da birbaşa təbii artıma mənfi təsir göstərir. Eyni zamanda nikahların sayında da azalma var. Məsələn, 2024-cü ilin statistikası göstərir ki, ölkədə 49 500 nikah bağlanıb. Ötən illərlə müqayisədə bu, ciddi eniş deməkdir. Son 5 ildə ümumi əhali sayı 38 min nəfər azalıb ki, bu da olduqca ciddi rəqəmdir və təbii artımda ləngimeni təsdiqləyir.

Cənubi Qafqaz ölkələri ilə müqayisədə Azərbaycan hələ də təbii artıma görə ön sıradadır. Lakin 30-40 il əvvəlki göstəricilərlə müqayisədə aydın olur ki, ölkədə demoqrafik artım əvvəlki dinamikanı saxlamır, əksinə, geriləmə var".

**Üzeyir Şəfiyev bunun əsas səbəblərini açıqlayb:** "İlk növbədə ailə planlaşdırılmasında insanların düşüncə tərzinin dəyişməsi rol oynayır. Əvvəllər çoxuşaqlı ailələr üstünlük təşkil edirdisə, indi bir və ya iki uşaqla kifayətlənmək meyli güclənib. Ən yaxşı halda ailələr üç uşaq dünyaya gətirməyi planlaşdırır. Bununla yanaşı, regionlardan paytaxta miqrasiya da təbii artıma mənfi təsir göstərir. Çünki təbii artım ən çox regionlarda yüksək olurdu. Əhali regionlardan Bakıya köçdükcə bölgələrdə də demoqrafik vəziyyət dəyişir.

Bütün bunların qarşısını almaq üçün düşünürəm ki, regionlara qayıdışı stimullaşdırmaq, bölgələrdə iş və sosial şərait yaratmaq lazımdır. Ümumiyyətlə, insanların mədəni və təhsil səviyyəsi artdıqca, çoxuşaqlı ailə modeli arxa plana keçir. Valideynlər az uşağı daha keyfiyyətli böyütmək, yaxşı təhsil vermək, karyera və mənzillə təmin etmək barədə düşünürlər.

Digər tərəfdən, Azərbaycanda uşaqpulu sistemi 2006-cı ildən dayandırılıb. Hazırda ünvanlı sosial yardım mövcuddur, lakin bu, bütün uşaqları əhatə etmir. Ona görə də çoxuşaqlı ailələri təşviq edən əlavə sosial dəstək mexanizmlərinə ehtiyac var. Əgər hökumət demoqrafik artımın ləngiməsini ciddi təhlükə hesab edərsə, əlavə stimullaşdırıcı addımlar ata bilər.

Məsələn, Türkiyədə 2025-ci ildən demoqrafik artımı dəstəkləmək üçün müxtəlif mexanizmlər nəzərdə tutulub. Gənc ailələrə güzəştli mənzil kreditlərinin verilməsi, regionlarda məşğulluq imkanlarının artırılması, torpaq sahələrinin ayrılması, məşğulluq marafonlarının təşkili və digər addımlar buna misaldır".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



## 17 yaşlı qızı ərə verdi, qarşısı alındı

**Zərdabda şadlıq saraylarından birində yetkinlik yaşına çatmayan qıza toy mərasiminin keçirilməsinin qarşısı alınıb. Modern.az xəbər verir ki, polis əməkdaşları məclisin keçirildiyi şadlıq sarayına gedərək qanunvericiliyə uyğun tədbirlər görüblər.**

Araşdırmalarla bəyin 32, gəlinin isə 17 yaşında olduğu müəyyənləşib. Hər iki tərəfin valideynləri ilə söhbət aparılıb, bunun qanunvericiliklə qadağan olduğu izah edilib. Məclisin keçirilməsi isə təxirə salınıb.

Bundan əlavə, məclisin keçirilməsinə göz yuman şadlıq sarayının sahibi barəsində də inzibati qaydada protokol tərtib olunub və məsuliyyətə cəlb olunub.



## Övladları rus bölməsinə qəbul olmadı: məhkəməyə üz tutdu

**Qəbələnin Nic qəsəbəsində iki övladının rus bölməsində oxumasını istəyən valideyn problemlə qarşılaşıb. Modern.az-ın məlumatına görə, valideyn bildirib ki, iki övladı əvvəlcə rusdilli bağça və məktəbəhazırlıq qrupunda oxuyub, amma məktəbə qəbul üçün keçirilən müsahibədə "qeyri-məqbul" nəticə alıblar.**

Apelyasiyadan əliboş qayıdan valideyn məhkəməyə üz tutub. Hakimlər müsahibənin videoyazısına baxıb və uşaqların sualları anladığını, cavab verdiyini, ünsiyyət qura bildiyini qeyd ediblər.

Məhkəmənin fikrincə, komissiya qiymətləndirməni düzgün aparmayıb, azyaşlıların ilk dəfə tanımadıqları müəllimlərlə ünsiyyətdə olmasının yaratdığı həyəcan, cavabların gecikməsi kimi təbii hallar nəzərə alınmayıb.

Məhkəmə qərarı ləğv edərək Şəki-Zaqatala Regional Təhsil İdarəsinə uşaqları rus bölməsinin birinci sinfinə qəbul etmək öhdəliyi qoyub.

YENİ MÜSAVAT

Son səhifə

N 157 (8767) 4 sentyabr 2025

Avqust

# Bunları bilirsinizmi?

* Diş minası bədəninizdəki ən sərt hissədir.
* Burnunuzla baş barmağınız eyni boydadır.
* Dişlərinizin kökü dünyaya gəlməzdən 6 ay əvvəl meydana gəlməyə başlayır.
* Bədəninizin 30 dəqiqədə itirdiyi istiliklə iki litr suyu qaynada bilərsiniz.
* Hər bir ayağınızda təxminən bir trilyon bakteriya var.
* Gördüyümüz yuxular 2-3 saniyə davam edər.
* Ən yaxşı yuxu vaxtı - axşam saat 10-dan səhər 6-ya kimidir.
* Dərman içəndən sonra bir müddət uzanmayın.
* Telefonun enerjisi 1 və ya 2 xətt qalıbsa, ondan istifadə etməyin. Çünki bu zaman telefonla danışanda radiasiya 1000 dəfə artıq təsir göstərir.
* Sizə istidirsə, dirsəklərinizi soyuq suya salın.
* Ayaqlarınız yorulmuşsa, sərin su ilə yuyun, sonra dabanlarınıza krem çəkin və dabandan dizə qədər masaj edin.
* Su çox içməyin, daha çox tərləyəcəksiniz, isti çay, ya da meyvə şirəsi susuzluğunuzu daha yaxşı yatırar.
* Dəri qış ərzində bir qədər solur və təravətini itirir, bunun qarşısını almaq üçün çimməndə dərini bərk sürtmək və gah soyuq, gah da isti duş qəbul etmək lazımdır. Bu, qan dövranını yaxşılaşdırır və solğunluğu aradan qaldırır.

# Ürəyin qocalmasına səbəb olan gözlənilməz amil açıqlandı



**Təkcə orqanizmdəki yağ miqdarı deyil, onun bədəndə yerləşmə forması da ürəyin və qan damarlarının qocalma sürətinə təsir göstərir. Oxu.Az xəbər verir ki, bu barədə britaniyalı alimlərin araşdırmasının nəticələri "European Heart Journal" jurnalında dərc olunub.**

Məlumata görə, tədqiqatda miokard patologiyası olmayan 21 mindən çox könüllü iştirak edib. Alimlər tədqiqat zamanı "kardioloji yaş"ı - yəni insanın faktiki yaşı ilə onun ürəyinin və qan damarlarının vəziyyəti arasındakı fərqi qiymətləndiriblər.

Sağlamlıq üçün ən təhlükəli yağ tipləri kimi daxili orqanları əhatə edən viseral piy, əzələlərdə yağ infiltrasiyası (miosteatoz) və qaraciyərdə lipid yığılması müəyyən edilib. Bu faktorlar həm kişilərdə, həm də qadınlarda ürək-damar sisteminin qocalma prosesini sürətləndirib.

Eyni zamanda yağın paylanmasının cinsə görə təsiri də fərqli olub. Kişilərdə miokardın (ürək divarının orta əzələ təbəqəsi, ürəyin hərəkətinə və qan dövranının təmin edilməsinə cavabdehdir - red.) vaxtından əvvəl aşınmasına qarın nahiyəsində və bədənin aşağı hissəsində toplanan yağ səbəb olub. Qadınlarda isə omba nahiyəsindəki piy toplanması, əksinə, qoruyucu təsir göstərib.

# 17 yaşlı fransalı qızın fenomenal yaddaşı alimləri heyrətə gətirdi

**Alimlər nadir fenomen - hipertimeziya, yəni müstəsna avtobioqrafik yaddaşa sahib 17 yaşlı fransalı qızla bağlı unikal hadisəni təsvir ediblər.**

Oxu.Az xəbər verir ki, bununla bağlı tədqiqatın nəticələri "Neurocase" jurnalında dərc olunub.

Qeyd olunub ki, qız fövqəladə dəqiqlik və emosional intensivliklə "zamanda səyahət etməyi" bacarır, zehni olaraq keçmişdəki hadisələrə qayıda və hətta xəyali bir gələcək yaşaya bilir.

Tədqiqatda TL kimi adlandırılan yeniyetmə uşaqlıqdan yaddaşının digərlərindən fərqləndiyini hiss edib. O, xatirələri yaddaşında ailə, məktəb, səfərlər, dostlar kimi "kateqoriyalara bölə bilir".

Sınaqlar zamanı TL normadan xeyli yüksək nəticələr göstərib: o, uşaqlıq və yeniyetməlik illərindən təfərrüatlı epizodları asanlıqla xatırlayaraq, onları həm birinci şəxsin adından, həm də müşahidəçi baxışından çatdırıb.

Bu cür hallar çox nadir olduğundan geniş nəticələr çıxarmağa imkan verməsə də, tədqiqatçılar onları insanın avtobioqrafik yaddaşının quruluşunu və emosiyaların, vizual təsvirlərin xatirələrin təşkilində rolunu başa düşmək üçün dəyərli hesab edirlər.

"Bu hal göstərir ki, yaddaş təkcə qeyri-adi şəkildə detallı deyil, həm də daxili strukturlaşdırılmış, xüsusi arxitekturaya tabe ola bilən şəkildə formalaşa bilər. Bütün bunlar yaddaşın quruluşunda emosiyaların və təxəyyülün rolunu öyrənmək üçün yeni suallar doğurur", - deyə tədqiqat müəllifləri vurğulayıblar.

# Sosial şəbəkələrdə vaxt keçirmək buna görə insanı yorur - nevroloq açıqladı

**Sosial şəbəkələrdə vaxt keçirmək bəzən boşluq və ruh düşkünlüyü hissinə səbəb olur. Bu barədə nevroloq Ksenya Arifcqanova Gazeta.ru-ya açıqlamasında söyləyib. Nevroloq bildirib ki, sosial şəbəkələrdəki məlumat axını və ani mükafat sistemi ("like", paylaşım, xəbərdarlıq) dopamin sistemi vasitəsilə beyinə təsir edir və beynin mükafat mərkəzini aktivləşdirir. Bu, istifadəçini daha uzun müddət onlayn saxlamağa və davamlı məlumat istehlakına yönəldir, nəticədə diqqət, yaddaş və əhval-ruhiyyə zəifləyir.**

Həkim "mediabulimiya" termini ilə məlumatın kompulsiv istehlakını izah edir. Bu vəziyyətdə sinir sistemi yüklənir, insan informasiya filtrləməkdə çətinlik çəkir, diqqət və konsentrasiyada problem yaranır, yorğunluq və baş ağrıları müşahidə olunur. Həmçinin hətta pozitiv kontent də özünü digərləri ilə müqayisə etmək və özünü aşağı qiymətləndirmək kimi nəticələrə səbəb ola bilər.

Arifcqanova tövsiyə edir ki, sosial şəbəkələrdən istifadə zamanı fasilələr verilsin, bildirişlər yalnız vacib məlumatlarla məhdudlaşdırılsın və diqqəti qoruyacaq, pozitiv və dəstəkləyici kontentə üstünlük verilsin. Bu yanaşma beynin işləməsini yaxşılaşdırır, diqqət və emosional balansı qoruyur.

# Yaponiyada 80 yaşlı qadın özünü astronavt kimi təqdim edən fırıldaqçının qurbanı olub

**Yaponiyada 80 yaşlı qadın internetdə tanış olduğu və astronavt olduğunu iddia edən fırıldaqçının qurbanı olub. Bu barədə "CBS News" kanalı məlumat yayıb. Qısa yazışmalardan sonra fırıldaqçı qadından maddi yardım istəyib, çünki onun sözlərinə görə, hazırda kosmosda kosmik gəminin içərisindədir, lakin "hücuma məruz qalıb və oksigenə ehtiyacı var".**

Fırıldaqçı oksigen almaq üçün qadını pul köçürməyə razı salıb, nəticədə qadın 6 700 dollar itirib. 80 yaşlı qadının yazışmalar əsnasında "astronavt"a qarşı hisslərinin yarandığı bildirilir.



# Avropada bu lakdan istifadə qadağan edildi - sonsuzluq yaradır

**Avropa Birliyi (AB) 1 sentyabrdan etibarən manikürdə istifadə edilən TPO (Trimethylbenzoyl diphenylphosphine oxide)-nun istifadəsini qadağan edib.**

Qərarın səbəbi maddənin reproduktiv sağlamlığa potensial zərərli olmasıdır. Artıq TPO tərkibli məhsulların satışına və istifadəsinə tamamilə son qoyulub. Salonlara mövcud məhsullardan imtina etmək, yeni sifarişlərdə isə TPO-suz alternativlər seçmək tövsiyə olunur. Qadağa hələlik yalnız Avropa Birliyində qüvvədədir. ABŞ-də TPO istifadəsi sərbəstdir, Birləşmiş Krallıqda isə 2026-cı ildən qadağan ediləcək. Qeyd edək ki, jel dırnaq son illərdə çox populyar olan, dırnaqlara xüsusi jel əsaslı lak sürtülərək UV və ya LED lampası altında bərkidilən manikür texnologiyasıdır.

Adi dırnaq lakından fərqli olaraq daha uzunömürlü və davamlıdır (2-4 həftə qalır). Asanlıqla qopmur və silinmir. Dırnaqlara parlaq və qalın görünüş verir.

# Alimlər dünyada ən bədbəxt yaş qrupunu müəyyən ediblər

**ABŞ və Böyük Britaniya alimləri Z nəslinə (zumerlər) aid olan 18-24 yaş arası insanların dünyanın 46 ölkəsində ən bədbəxt yaş qrupu olduğunu müəyyən ediblər. Bu barədə məlumat ABŞ-nin Nyu-Hempşir ştatındakı Dartmut Kolleci və London Universitet Kollecinin araşdırmasında yer alıb. Alimlər Z nəslinin nümayəndələri arasında xoşbəxtliyin azalmasının konkret səbəbini müəyyən edə bilməsələr də, bu nəsildə yaranan bir sıra problemləri qeyd ediblər. Məsələn, bir çox zumer müntəzəm olaraq məktəbə getmir və psixi sağlamlıq problemlərinə görə tez-tez işi erkən tərk edir.**

Araşdırmaya görə, Z nəslinin nümayəndələrinin 48%-i psixi sağlamlıq problemlərinin yaranması riski altındadır. Araşdırma həmçinin müəyyən edib ki, ən xoşbəxt insanlar 45-70 yaş arası insanlardır. Alimlərin fikrincə, onların psixi sağlamlığı zumerlərdən xeyli yaxşıdır.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500